# Giriş

Darvinizm cəhaləti əsas götürür, insanların elmi mövzulardakı məlumat əskikliyindən istifadə edir. Darvinist ideologiya məlumatsız kütlələrin üzərində qərəzli mövqe yaratmağa əsaslanır. Bunun üçün istifadə edilən üsul bol təkrar ilə kütlə hipnozu aparmaq və sehirli təsir yarada bilməkdir. Darvinistlərin kütlə hipnozunun təsiri bütün dünyanı əhatə etmişdir. Belə ki, insanların böyük bir qismi, əslində, haqqında heç bir şey bilmədikləri "təkamül"ün coşqun müdafiəçisinə çevrilmişdirlər. Bir çoxu nəyi müdafiə etdiyinin şüurunda belə deyildir. Onlar yalnız gündəlik qəzetlərdə gördükləri get-gedə ayağa qalxan xəyali meymun-insan şəkillərinin və ya "əcdadımız soxulcan imiş" kimi xəbərlərin təsirində qalmışdırlar. Bu kimi təlqinlərlə kütlə hipnozu müvəffəqiyyətə nail olmuşdur. Bu saxta müvəffəqiyyət səbəbi ilə heç kəs: "Dəlil var mı?" -deyə soruşmağı düşünməmişdir. Necə ki, ortada darvinistlərin təqdim edə biləcəyi bir dəlil yoxdur. Artıq bu təlqini alan adam üçün "təkamül" həyatının, demək olar ki, hər yerində qarşılaşdığı, böyük qəzet və jurnallarda davamlı rastlaşdığı, dövlətə bağlı məktəblərdə rəsmi olaraq tədris edilən, dövlət qurumları səviyyəsində qorunub təşviq edilən, dünyaca məşhur elm adamları tərəfindən müdafiə edilən həyatın ayrılmaz bir parçası halına gəlmişdir. Çox açıq olan bir saxtakarlıq təlqin, hipnoz və aldatma metodları ilə insanlara doğru imiş kimi sanki yeridilmişdir.

Tarixin ən böyük kütləvi yalanı olan darvinizmin 150 illik uğurunun tək qaynağı budur: təbliğat! Sistemli bir şəkildə həyata keçirilən darvinist təbliğat ilə, gerçəkdə, çox açıq olan bir saxtakarlıq dünyaya mahircəsinə hakim edilmişdir.

Bu təbliğat ilə elmin rədd etdiyi saxta təkamül nəzəriyyəsi yeganə və müzakirəsiz elmi həqiqət olaraq dünyaya tanıdılmışdır.

Darvinist təbliğat ilə hipnoz yayılmış, bəzi insanlar bu sehrin təsiri altında qalmış, sorğusuz-sualsız və bir çoxu da şüursuz bir şəkildə darvinist olmuşdurlar. Belə ki, bəzi insanlar fərqində belə olmadan dünyaya böyük bəlalar gətirən, 20-ci əsri qana bulayan bütün zülm sistemlərinin kökü olan, son dərəcə təhlükəli bir nəzəriyyənin müdafiəçisi halına gəlmişlər. Bütün dünyanı əhatə etmiş olan 150 illik darvinist yalan, yalnız və yalnız, mütəşəkkil tərzdə həyata keçirilən bu təbliğat üsulunun bir nəticəsidir.

Oxuyacağınız bu kitabda darvinistlərin sözü gedən təbliğat üsullarını necə istifadə etdiklərinə və kütlə hipnozunu necə gerçəkləşdirdiklərinə aid dəlilləri görəcəksiniz. Kitab boyunca nümunə olaraq verilən qəzet başlıqları darvinistlərin təbliğat silahları olan bir qisim mediadan necə istifadə etdiklərini, saxta və yalan xəbərləri yaymaqda necə cəsarətli olduqlarını göstərmək üçündür. Bu başlıqlar saxta təbliğatın ifşa edilməsi cəhətdən əhəmiyyət təşkil etdiyi kimi, oxucuların, xüsusilə, KİV-də necə darvinist bir aldanma ilə üz-üzə qaldıqlarını başa düşmələri və bundan sonra qarşılaşdıqları xəbərləri doğru baxış bucağı ilə dəyərləndirmələri cəhətdən böyük əhəmiyyət daşımaqdadır.

Məqsəd darvinist saxtakarlığı ifşa edə bilmək, darvinistlərin insanları necə doğrudan-doğruya aldatdıqlarını gözlər önünə sərə bilməkdir. İnsanları necə kütləvi təlqin ilə boğduqlarını, 150 ildir necə yalan danışdıqlarını göstərə bilməkdir. Əlinizdəki kitab darvinizmin bir saxtakarlıq olduğunun qəti dəlillərlə isbat edildiyi, 600 milyona yaxın fosilin təkamülü təkzib etdiyinin açıq dəlillərlə göstərildiyi, tək bir zülalın belə təsadüfən yarana bilməyəcəyinin bütün dünyaya elan edildiyi bu günlərdə təkamülün niyə hökumətlərdə, məktəblərdə, universitetlərdə, bir qisim media və bəzi elm adamları arasında geniş yayıldığını başa düşə bilmək üçün əhəmiyyətli bir dəlil hökmündədir.

Elmin süquta uğratdığı darvinizm indi təbliğat üsullarının da ifşa edilməsi ilə yeni bir çöküş daha yaşayacaqdır. 21-ci əsr darvinistlərin əllərindəki bütün qaynaqlara, maddi dəstəyə, media və təbliğat üsullarına baxmayaraq, təkamülün dəhşətli şəkildə çökdürüldüyü və yerlə bir olduğu bir yüzillik olacaqdır. 21-ci əsr bütün batil bütpərəst dinlərin yox olub getdiyi, Uca Rəbbimizin Hadi (Hidayət verən) isminin təcəlli etdiyi bir yüzillik olacaqdır. Uca Allah ayələrində bu şəkildə bildirir:

"İnsanların dəstə-dəstə Allahın dininə daxil olduqlarını gördüyün zaman, Rəbbini həmd-səna ilə təqdis et və Ondan bağışlanmağını dilə. Həqiqətən, O, tövbələri qəbul edəndir!" (Nəsr Surəsi, 2-3)

Darvinist Təbliğat Üsulları (1/3)

"İtkin halqa tapıldı" saxtakarlığını müəyyən aralıqlarla mətbuat yolu ilə gündəmə gətirirlər
Darvinist təbliğatın təməlində eynilə faşist Almaniyasının çirkin metodu kimi bir yalanın davamlı olaraq təkrarı vardır. Nasistlərin təbliğat naziri Yozef Göbbelsin tətbiq etdiyi metod darvinizmin yayılması məqsədilə çox əhatəli şəkildə istifadə edilmişdir. Yalan davamlı və müəyyən təkrarlarla söyləndikcə, elm adamları, dünyaca tanınmış jurnallar və qəzetlər bu yalana ortaq olduqca bir qisim məlumatsız insanlar buna inanmağa başlamışdırlar. Darvinizmin törəyib genişləndiyi mühit bax belə bir mühitdir.
Bu təbliğat üsulu səbəbi ilə, insanlar illərdir eyni hekayəni eşidirlər: "itmiş halqa tapıldı", "əksik halqa əlimizdədir", "halqa tamamlandı!.." Təkamülün illərdir heç cür tapıla bilməyən bu xəyali itkin halqası ilə bağlı xəbərlərin çıxması artıq bütün dünyada vərdiş halına gəlib. Çünki darvinistlər uyuşdurucu təsiri yaradan bu dərmanı insanlara müəyyən dozalarda davamlı olaraq yeridirlər. Təkrardakı məqsəd budur. Təkrarın məqsədi darvinist sehri insanlar üzərində təsirli edə bilməkdir.

(ŞƏKİL BAŞLIĞI) Bir lemur fosilinin və bir bonobo meymununun darvinist mediada insanın əcdadı kimi göstərilə bilməsi olduqca heyrətləndiricidir. Darvinistlər bu utandırıcı təbliğatdan ötrü üzr istəmək məcburiyyətində qalmışdırlar.
Darvinizmin etibarsızlığı göstərildiyi zaman, itmiş halqa deyə bir şeyin olmadığı insanlara çatdırıldığı zaman isə, darvinist çevrədə çaxnaşma havası baş qaldırır. Elə bu vaxt mətbuat yolu ilə aparılan bu təkrar siyasətinin dozası artırılır. Belə bir vəziyyətdə darvinistlər ya sensassional bir iddia ilə ortaya çıxar, ya da xəyali itmiş halqa xəbərlərini sıxlaşdırırlar. Dərmanın dozası bir anda artırılır. Sehrin təsirinin ortadan qalxmaması üçün saxta nə varsa gündəmə gətirilir. Nəsli tükənmiş canlı fosillərini bu saxta təbliğat üçün istifadə edirlər. Darvinist elm adamları işə başlayır, TV proqramları, darvinist jurnallar, sənədli filmlər yolu ilə bu xəbərlər əldən gəldiyincə dəstəklənir. Nümunə olaraq, İda bu çaxnaşmanın təsiri ilə ortaya atılmış təəccübləndirici bir saxtakarlıqdır. Bir lemur fosilini götürüb cəsarətli şəkildə bütün dünyaya insanın əcdadı kimi elan edə bilmək həqiqətən şok edici bir hadisədir. Bu fosilin utandırıcı bir təbliğat ilə, dünyanın səkkizinci möcüzəsi kimi saxta şüarlarla insanlara tanıdılması və haqqında qaldırılan geniş miqyaslı çaxnaşma darvinistlərin yaşadıqları sıxıntının və çarəsizliyin elanı olmuşdur. Bir çox darvinist sözü gedən çaxnaşmadan nə qədər utandıqlarını açıqca dilə gətirmək məcburiyyətində qalmış və bu saxta təbliğatın dərhal ardından İdanın yalnız və yalnız bir lemur olduğu açıqlanmış, üzr istənilərək iddialar geri alınmışdır.
İda yeganə nümunə deyil. Darvinizmin yıxılışının dəhşətli təsiri səbəbi ilə bu növ sensasiyalar son dövrlərdə kütləvi hal almışdır. İdanın ardınca Ardi də eyni çarəsizliyin nəticəsində törəmiş və bir meymun fosili insanın əcdadı elan edilmişdir. Ancaq sensasiya uzun çəkməmiş, onun da yalnızca bir meymun olduğu açıqlanaraq iddialar geri çəkilmişdir.
İddialar davamlı geri alınır, bundan sonra da alınacaqdır. Çünki xəyali "itmiş halqa tapıldı" xəbərlərinin hamısı yalandır. İndiyə qədər 600 milyondan artıq fosil çıxarılmışdır, bunlardan tək bir dənəsi belə ara fosil deyildir. İndiyə qədər edilən çağırışlara, dəvətlərə baxmayaraq, tək bir darvinist tək bir dənə belə ara fosil gətirə bilməmişdir. Darvinizmin əsaslandığı bu ən fəal təbliğat üsulu ortadan qaldırıldıqca və üstü açıldıqca darvinistlər əsl süqutu yaşamaqdadırlar. Saxtakarlıqları bir-bir üzə çıxmaqdadır.

(ŞƏKİL BAŞLIĞI) Ardi və İda saxtakarlıqları bir qisim mətbuatda bu başlıqlarla gündəmə gəldi. Məqsəd saxta xəbərlərlə təkamül təbliğatını davam etdirə bilmək idi.
1- Habertürk, 02.10.2009.
2- Posta, 21.05.2009.
Darvinistlərin İda yalanı ilə bağlı etirafları

Cons Hopkins Universiteti, Karnegi Təbiət Tarixi Muzeyi paleontoloqlarından Kris Bird: “Bu fosilin, BİZƏ İNANDIRMAQ İSTƏDİKLƏRİNİN ƏKSİNƏ, nə meymunlarla, nə də insan ilə bir bağlılığı yoxdur”.1
Dyuk Universitetindən paleontoloq Riçard Key “İdanın itmiş halqa olduğuna dair iddiaları dəstəkləyəcək əldə heç bir elmi analiz olmadığı”nı, YƏNİ HEÇ BİR DƏLİL OLMADIĞINI açıqca etiraf edir.2
“Timesonline”da isə bu mövzuda bu etiraf yer almışdır: “Attenboro İdanı insanın keçmişi ilə ən yeni və ən mükəmməl əlaqəyə döndərən MƏTBUAT SİRKİNİN bir nümayəndəsinə çevrildi... Belə tapıntılar, ümumiyyətlə, elmi jurnalların ciddi səhifələrində gün işığına çıxarılır. Amma İda haqqında Amerika Təbiət Tarixi Muzeyindəki təmtəraqlı mətbuat iclası xaricində belə bir şey müşahidə edilmədi. Sonrasında fosili araşdıran insanlar araşdırmaları haqqında detallar verdilər. Ancaq edilən açıqlama son dərəcə axmaqca idi”.3
Kembric Universitetindən insanın təkamülü üzrə professoru Robert Foli isə “bu canlıya itmiş halqa deyilməsinin “mənasız” olduğu”nu ifadə edirdi.4
“Dr. Saymons 10 il sonra mənə ilk dəfə olaraq bu AXMAQLIQ haqqındakı hirsini paylaşmaq üçün zəng etdi və on il sonra ilk dəfə olaraq onunla eyni fikirdə idim. Təqdim edilən məhsul o qədər fövqəladə idi ki, indi bu şounun müddətini tamamlamaq üçün elm adamlarının təzyiq altında olduqları aydın olurdu”.
Saymons isə bunları söyləyirdi: “Bu, axmaq və çox təhlükəlidir. Bu, tamamilə saxta elmlə məşğul olmaq deməkdir… Darwinius mükəmməl bir fosildir, amma HEÇ BİR ŞƏKİLDƏ İTKİN HALQA DEYİL. TƏKAMÜL ÜÇÜN ÇIXILMAZ VƏZİYYƏT TƏŞKİL EDİR”.
1. The Missing Link? Nightline, ABC News television, May 20, 2009. The Missing Link? Nightline, ABC News television, May 20, 2009
2. Gibbons, A. "Revolutionary" Fossil Fails to Dazzle Paleontologists. ScienceNOW Daily News. Posted on sciencenow.sciencemag.org May 19, 2009, accessed May 20, 2009
3. http://www.timesonline.co.uk/tol/news/uk/science/article6350095.ece
4. http://www.timesonline.co.uk/tol/news/uk/science/article6350095.ece

(ŞƏKİL BAŞLIĞI) İda saxtakarlığı böyük hay-küylə mediaya daxil oldu və darvinist təbliğat üçün İdadan geniş surətdə istifadə edildi. Saxtakarlıq üzə çıxana qədər itkin halqa yalanı çirkin cürətlə davam etdirildi.
1- NTV Bilim, 06.2009.
2- Akşam, 20.05.2009.
3- Atlas, 07.2009.

(ŞƏKİL BAŞLIĞI) Təkamülün “xəyali itmiş halqası” nın tapıldığına dair mətbuatda çıxan bu tip xəbərlər, ümumiyyətlə, darvinistlərin təbliğatı yaymaq üçün istifadə etdikləri üsullarındandır. Darvinistlərin əllərində təkamülü dəstəkləyən elmi bir dəlil olmadığından, eyni saxtakarca başlığı ataraq sehri davam etdirmək istəyirlər. Xüsusilə, ciddi şəkildə məğlubiyyətə uğradıqları zamanlarda “itmiş halqa tapıldı” başlığını darvinist nəşrlərin sərlövhələrindən insanlara təqdim edər və bu yalan xəbəri təkamülü xatırladan şəkillərlə dəstəkləyərlər. Bu hipnoz üsulu 150 ildir istifadə edilməkdədir. Bu xəbərləri oxuyan milyonlarla insan illərcə təkamülün və itmiş halqanın həqiqətən var olduğunu zənn etmişdirlər. Ta ki, təkamülün saxtakarlığı onlara Harun Yəhya əsərləri vəsiləsilə hərtərəfli açıqlanına qədər…
1- Birgün, 12.06.2006; 2- Evrensel, 07.04.2006; 3- Hürriyet, 23.04.2006; 4- Hürriyet, 20.10.2006; 5- Hürriyet, 07.04.2006; 6- Evrensel, 13.04.2006; 7- Birgün, 13.04.2006; 8- Radikal, 11.05.2009; 9- Radikal, 07.04.2006; 10- Radikal, 18.02.2009.

(ŞƏKİL BAŞLIĞI) Təkamülün bir saxtakarlıq olduğunu bilməyən bir insan üçün tanınmış bir qəzetin başlığından fosil şəkilləri ilə, elmi termin və formullarla verilən bu xəbərlər olduqca inandırıcı kimi görünə bilər. Halbuki sözü gedən "itmiş halqa" xəbərlərinin hamısı uydurmadır. Təkamülü dəstəkləyən TƏK BİR DƏNƏ BELƏ ARA FOSİL YOXDUR. Belə bir itmiş halqa əsla tapılmamışdır və tapılması imkansızdır. Çünki canlılar TƏKAMÜL KEÇİRMƏMİŞ, HAMISINI ALLAH YARATMIŞDIR.
1- Hürriyet, 21.06.1998; 2- Hürriyet, 20.11.2004; 3- Taraf, 21.05.2009; 4- Sabah, 28.08.1999;
5- Bugün, 06.11.2006; 6- Vatan, 21.09.2006; 7- Birgün, 24.01.2008; 8- Akşam, 23.01.2009;
9- Akşam, 19.07.2002; 10- Birgün, 02.02.2008; 11- Hürriyet, 26.06.2008; 12- Vatan, 08.04.2001;
13- Radikal, 24.04.2009.

Elmi terminlər və formullarla elmin adından istifadə edərək sehr təsiri yaradırlar

Təkamül nəzəriyyəsi ilə bağlı bütün aldadıcı xəbərlərin elm adından ortaya çıxması, darvinist elm jurnallarında yayımlanması, məktəblərin tədris planında, biologiya dərslərində elm kimi öyrədilməsi və təkamül müdafiəçilərinin davamlı surətdə elmi daşıdıqlarını iddia etmələri insanlar üzərində ağır bir təlqin meydana gətirmişdir. Darvinistlərin bu sıx təlqinləri nəticəsində təkamülü rədd etmək, sanki elmi rədd etməklə ekvivalent göstərilmişdir. İnsanlara elm adı altında, zorla qəbul etdirərək təkamül öyrədilmişdir. Halbuki darvinizmin elm ilə heç bir əlaqəsi yoxdur. Elm darvinizmin düşmənidir. Elm ateizmin qarşısındadır. Elm antikommunistdir, antimarksistdir. Elm; marksist, ateist və darvinist düşüncəni param-parça edən bir sistemdir. Elmin hər sahəsi təkamülü təkzib etmişdir. Elm yolu ilə darvinist yalan süquta uğramışdır. Elm sayəsində təkamül tam olaraq qüvvəsini itirmişdir. Mikrobiologiya, genetika, molekulyar biologiya, zoologiya, paleontologiya, qısaca, bütün elm sahələri təkamülün etibarsızlığını isbat etmişdir. Darvinistlər elm qarşısında ən böyük məğlubiyyətlərini dadmışdırlar. Bu səbəbdən, təkamülün elmi bir nəzəriyyə imiş kimi oxudulması və təlqin edilməsi böyük bir yalandır. Elm Allaha iman edənlər üçündür, səmimi dindarlara fayda gətirir.

Bütün bu gerçəklərə baxmayaraq, darvinistlərin ən böyük aldatma yolu elmdən keçdiyi üçün bu təlqini əllərindən buraxmaq istəməzlər. Bunun üçün darvinist elm jurnallarında yayımladıqları aldadıcı xəbərlərə çoxlu elmi termin və formul əlavə edərək oxucular üzərində elə təəssürat yaratmağa çalışırlar ki, guya, çox əhəmiyyətli, anlaşılmaz və mürəkkəb məlumat verirlər.

Latınca sözlər darvinistlərin aldadıcı metodlarının baş aktyorlarıdır. Darvinistlər saxta fosillərə, quraşdırdıqları yeni saxta nəzəriyyələrə latınca adlar verdikləri zaman inandırıcılıqlarının artacağını düşünürlər. Halbuki izah etdikləri mövzunun içində elmi heç bir dəlil yoxdur. Lakin latınca ifadələrlə danışdıqda qulaq asan insanların bir qismi bu saxta elmi şounun sehrinə inanır və dərk etməsi imkansız olan bir elm dəryası ilə qarşı-qarşıya olduğunu düşünür. Ağlının çatmayacağı qənaətinə gəlir və mövzunu alimlərə buraxmaq lazım olduğunu, onların hər dediklərinin doğru olacağını düşünür. Hətta bu təlqin elə güclü verilmişdir ki, sözü gedən alimlərə inanmamaq ciddi bir ağılsızlıq kimi qəbul edilir. İnsanlar üzərindəki dərin sehr təsiri bax belə yaradılır.

Darvinistlərin istifadə etdikləri formulların, latınca sözlərin, elmi terminlərin hamısı saxtadır. Sözü gedən elm adamları da bir saxtakarlığı müdafiə etdiklərinin fərqindədirlər. Darvinistlər elmdən istifadə edərək sadəcə elmi şou göstərirlər.

Uydurduqları hekayələrin gerçək üzü ortaya çıxarıldığında da o ana qədər darvinist jurnallarda səhifələrlə izah edib durduqları saxta fosilləri tələm-tələsik geri almaq məcburiyyətində qalırlar. Bir oranqutan çənəsinə insan kəllə sümüyü qəsdən əlavə edilərək, dişləri rəndələnərək hazırlanan, haqqında 40-dan artıq "elmi" doktorluq dissertasiyası hazırlanan, uydurma latınca adı ilə Eoanthropus dawsoni (Piltdaun adamı) saxtakarlığı; tək bir donuz dişini götürüb ailəsinə qədər şəkli çəkilən, illərlə kitablarda "elmi" təkamül dəlili imiş kimi oxudulan, uydurma latınca adı ilə Hesperopithecus haroldcookii (Nebraska adamı) saxtakarlığı; sadəcə bir meymun olduğu aydın olan, uydurma latınca adı ilə Australopithecus afarensis saxtakarlığı; beş fərqli fosilin bir birinə əlavə edilməsi ilə yaradılan və bütün darvinist nəşrlərdə uçmağa hazırlaşan dinozavr olaraq tanıdılan,

uydurma latınca adı ilə Archaeoraptor liaoningensis saxtakarlığı və son olaraq, bir lemur olub insanın əcdadı kimi qələmə verilməyə çalışılan İda saxtakarlığı bunun bir neçə dəlilindən biridir.

(ŞƏKİL BAŞLIĞI) Elm antitəkamüldür, antidarvinizmdir. Elmin hər sahəsi təkamülü qəti olaraq rədd etmişdir. 21-ci yüzillikdə təkamülə ən böyük zərbə elmdən gəlmişdir. Lakin təkamül təəccübləndirici şəkildə elm adından ortaya çıxır. Saxta təbliğatını yaymaq üçün elmi istifadə edir. Saxta xəbərləri elmi terminlərlə bəzəyərək hipnozu daha təsirli etməyə çalışır. Halbuki darvinist nəşrlərdə keçən bu elmi terminlərin və formulların həqiqətdə verilən xəbərlə əlaqəsi yoxdur.
1- Birgün, 20.09.2006; 2- Hürriyet, 03.09.1999; 3- Star, 27.02.2009; 4- Star, 12.01.2010;
5- Hürriyet, 10.04.2001; 6- Hürriyet, 21.10.1999; 7- Hürriyet, 02.07.2005; 8- Birgün, 09.05.2008;
9- Birgün, 13.08.2008; 10- Hürriyet, 17.05.2005.

(ŞƏKİL BAŞLIĞI) Bu başlıqlardakı kimi saxta təkamül xəbərlərinə baxan, mövzu haqqında məlumatsız bir insan başlıq və şəkillərdən həqiqətən müxtəlif araşdırmalar nəticəsində elmi məlumatlar əldə edildiyi təəssüratına qapıla bilər. Halbuki bu xəbərlərin hamısı uydurmadır. Heç bir elmi araşdırma bu nəticələri verməmişdir. Elmi araşdırmaların verdiyi tək nəticə tarixin heç bir nöqtəsində heç bir şəkildə təkamülün yaşanmamış olduğu həqiqətidir. Onsuz da, darvinistləri ən pərişan edən məsələ də bu həqiqətin hal-hazırda bütün dünyaya ifşa edilmiş olmasıdır.
1- Birgün, 19.08.2008; 2- Hürriyet, 20.03.2001; 3- Birgün, 15.08.2005; 4- Hürriyet Bilim, 12.10.2002; 5- Birgün, 20.10.2008; 6- Evrensel, 24.10.2004; 7- Radikal, 02.06.2006; 8- Hürriyet, 29.04.2000.

(ŞƏKİL BAŞLIĞI) Darvinistlərin ən diqqətə çarpan özəlliklərindən biri insanlarla sanki lağ etmələri, insanları qeyri-adi axmaqlıqdakı xəbərlərə inanmağa müdhiş bir cəsurluqla məcbur etmələridir. Darvinistlər 150 ildir bunu etdikləri və keçmişdə bu yolla tərəfdar topladıqları üçün günümüzdə də mətbuat yolu ilə eyni saxtakarlığı davam etdirməyə çalışmaqdadırlar. Lakin artıq uğur əldə etmələri imkansızdır.
1- Radikal, 26.03.2004; 2- Cumhuriyet, 20.08.2003; 3- Hürriyet, 20.08.2003; 4- Birgün, 19.10.2006;
5- Radikal, 19.07.2008; 6- Akşam, 16.01.2003; 7- Hürriyet, 04.08.2009.
Bunların hər biri dünyanın ən tanınmış elmi jurnallarında dünyanın ən tanınmış elm adamlarının istinadları ilə bol-bol latınca terminlər istifadə edilərək yayılmış saxtakarlıqlardır. Bu saxtakarlıqların gerçək üzü ortaya çıxarılmasa, bunlar təəccübləndirici şəkildə məktəb kitablarındakı və elmi jurnallardakı yerlərini qoruyacaq və ünvanı "elm adamı" olan insanlar tərəfindən müdafiə ediləcəkdir. Darvinizm elm adamlarının, elmi jurnalların, TV-lərin, qəzetlərin istifadə edildiyi bu qədər təhlükəli və böyük bir yalandır.

Bütün canlıları sadə kimi göstərməyə çalışırlar

Darvinistlərin aldatma üsulları adətən insanları düşündürməmək üzərində qurulmuşdur. Bunun özlərinə görə ən təsirli üsullarından biri də fövqəladə kompleksliкdəki canlı aləmi tamamilə gözardı edib, bunu "sadə" göstərə bilməkdir.
Darvinistlər "palçıqlı suda hüceyrə yarandı" deyirlər. Tək bir zülalın necə təsadüfən meydana gələ biləcəyini belə açıqlaya bilməz ikən, ən texnoloji laboratoriyalarda hələ tək bir hüceyrəni anlamağa çalışarkən, insanları "palçıqlı suda yaranan ilk hüceyrə" yalanı ilə aldatmağa çalışırlar.

(ŞƏKİL BAŞLIĞI) 19-cu yüzillikdə Darvinin içi su dolu qovuqcuq zənn etdiyi hüceyrənin 21-ci yüzillikdə dünyanın ən böyük mərkəz şəhəri olan Nyu-York şəhərindən daha kompleks olduğu məlum olmuşdur. Nəinki hüceyrənin, hüceyrədəki tək bir zülalın belə təsadüfən yaranması imkansızdır.

(ŞƏKİL BAŞLIĞI) Canlılar qeyri-adi dərəcədə kompleksdir. Tək bir canlı hüceyrəsi detalları belə anlaşılmamış möhtəşəm bir aləmdir. Hüceyrənin tək bir zülalı qarşısında darvinistlər ən böyük məğlubiyyətlə qarşılaşmışdırlar. Tək bir zülala belə açıqlama gətirə bilmirlər. Bu səbəbdən darvinistlərin genetik araşdırmalar, gen sahəsi, DNT kimi mövzulardan istifadə edərək verdikləri təkamül xəbərləri çox böyük bir saxtakarlıqdır. Genetika elmi təkamülü yerlə-bir etmişdir. Canlı aləmin başlanğıcı iddiası darvinistlərə ən böyük süqutu gətirmişdir. Heç bir elmi tədqiqat darvinist nəşrlərdə danışılan nəticələrin heç birini verməmişdir. Sözü gedən xəbərlərin hamısı tamamilə saxtakarlıqdır.
1- Radikal, 14.01.2006; 2- Akşam, 19.10.2008; 3- Radikal, 25.02.2007; 4- Hürriyet, 08.03.1998; 5- Radikal, 25.04.2009; 6- Akşam, 28.08.2002; 7- Hürriyet, 05.07.2008; 8- Hürriyet, 13.11.2008.

(ŞƏKİL BAŞLIĞI) Təkamülçülərin bütün iddiaları ağıl və məntiq xaricindədir. Heç bir zaman dinozavrlar qaçarkən birdən uçmağa başlaya bilməzlər. Meymunun insandan tək fərqi yaxşı qaçması deyildir. Nə qarışqayeyən, nə soxulcan, nə də bakteriya insanla qohum deyildir. Canlılar darvinistlərin bu uydurma nağılları ilə açıqlanmayacaq qədər kompleksdir. Darvinistlər canlıları üstdəki başlıqlardakı kimi bəsit göstərməyə çalışırlar. Çünki özlərinə görə, nə qədər bəsit olarsa, "hər şey təsadüfən yarandı" iddiası daha rahat yayıla biləcəkdir. Bu təlqinlə illərlə insanları aldatmışdırlar. Lakin tək bir hüceyrədəki kompleksliyi göstərən modern elm darvinizmin sonunu gətirmişdir.
1- Cumhuriyet, 04.09.2004; 2- Birgün, 19.06.2006; 3- Radikal, 23.01.2008; 4- Milliyet, 18.10.2003; 5- Hürriyet, 20.07.2007; 6- Vatan, 31.01.2006; 7- Birgün, 24.06.2005; 8- Birgün, 05.03.2005.
Darvinistlər insanlara balıqların quruya çıxaraq zamanla tısbağa olduqlarını, sürünənlərin anidən qanadlanıb tüklənərək uçmağa başladıqlarını, ayıların dəniz sahilində oynayarkən balinaya çevrildiklərini (hansı ki, bu, Darvinin öz iddiasıdır), şimpanzelərin də (darvinistlər şimpanze və ya meymun sözlərindən bir növ xəcalət duyduqları üçün onların dili ilə desək, xəyali "meymunabənzər canlılar") laboratoriyalarda öz beyin hüceyrələrini incələyən elm adamlarına, professorlara, alimlərə çevrildiklərini iddia edirlər. Həyatın içindəki möhtəşəm komplekslik darvinistlər üçün içindən çıxılmaz böyük bir problemdir. Bu səbəblə, tək çıxış yolları hər şeyi təsadüflərlə açıqlaya bilmək üçün həyatı və içindəki kompleksliyi sanki "bəsit imiş" kimi göstərə bilməkdir.
Bu məqsədlə, darvinistlərin insanlara vermək istədiyi təlqin qısaca budur: palçıqlı su + təsadüflər + zaman = canlı aləm! Darvinistlərə əsasən, zaman darvinistlərin yaradıcı güc isnad etdikləri (Allahı tənzih edirik) təsadüflərlə birləşincə möcüzələr meydana gətirməkdə, canlıları yoxdan var etməkdə, canlıları bütün qeyri-mümkünlüyə baxmayaraq bir-birinə çevirməkdədir. Darvinistlərin iddiası hər şeyi beləcə bəsit göstərməyə çalışan gülməli bir məntiqdir.

(ŞƏKİL BAŞLIĞI) Darvinistlərin yer üzündəki kompleks strukturları və fövqəladə müxtəlifliyi açıqlamaq üçün istifadə etdikləri xəyali formul.
Bu, insanlara tətbiq edilən gizlin bir hipnozdur. Bu hipnoz insanların bəzilərinə o dərəcədə təsir edir ki, bu insanlar qeyri-adi dərəcədə sarsaq izahlara bir anda inana bilirlər. İnsanın şimpanzenin bir az inkişaf etmiş forması olduğu, balıqların istədikləri zaman quruya çıxıb quru canlısına çevriləcəkləri, palçıqlı suyun içində həqiqətən bir hüceyrənin yarana biləcəyi, dinozavrların qanadlanıb quş olacaqları qənaətinə gələ bilərlər. Çünki kütləvi hipnozun altındadırlar. Bu hipnoz onlara dünya miqyasında tanınmış professorlar tərəfindən, dünya miqyasında tanınmış jurnalların cild səhifələrində anlaşılmaz qəribə formullar və qəribə elmi ifadələrlə bəzənmiş vəziyyətdə verilir. Halbuki canlılarda "bəsit" olan heç bir şey yoxdur. Təkamül hipnozu altında izah edilən hər şey yalandır. Tək bir hüceyrə bütün infrastrukturu və daxili quruluşu ilə dünyanın ən böyük mərkəz şəhəri olan Nyu-York şəhərindən belə daha kompleks bir quruluşdur. Son iki əsrdir aparılan çox əhatəli laboratoriya araşdırmalarına baxmayaraq, bu fövqəladə strukturun ancaq çox kiçik bir qismini anlamaq mümkün olmuş, lakin təqlidi isə heç bir şəkildə mümkün olmamışdır. Hüceyrənin

sahib olduğu minlərlə zülaldan biri belə yaradıla bilmir. Canlı varlıqlar sahib olduqları komplekslik, həssaslıq, simmetriya, nizam, təfərrüat, təchizat və sistem baxımından, sözün əsl mənasında, bir sənət əsəridirlər. Bu səbəbdən darvinist hipnozun tələb etdiyi bəsit açıqlamalar yalnız insanları aldatmaq üçündür.

(ŞƏKİL BAŞLIĞI) Canlı varlıqlar sahib olduqları komplekslik, həssaslıq, simmetriya, nizam, təfərrüat, təchizat və sistem baxımından, sözün əsl mənasında, bir sənət əsəridirlər. Bu sənət əsərləri üstün Sənətkarın varlığına, Uca Allahın Qüdrətinə işarə edir. Darvinistlər də bütün varlıqların yaradılmış bir sənət əsəri olduğunun fərqindədirlər. Lakin ideologiyalarını tərk etmək istəməzlər. Qeyri-adi dərəcədə cəfəng iddialarını saxtakarlıq olduğunu bilə-bilə yaymağa çalışmalarının ən əsas səbəbi budur.
Darvinistlər bütün bu cəfəngiyatdan danışarkən canlılarda bəsit heç bir şey olmadığını, əlbəttə, özləri də bilirlər. Palçıqlı suda nəinki hüceyrə, tək bir zülalın belə yarana bilməyəcəyinin, balığın quruya çıxıb sonra da uçmağa başlaya bilməyəcəyinin, əlbəttə ki, fərqindədirlər. Darvinistlərin bu izahları psixoloji sehr və hipnoz məqsədli etdiklərini unutmaq olmaz. Üstəlik, bütün bu açıqlamaları utanıb-çəkinmədən edən darvinistlər həqiqətdə tək bir zülalın necə meydana gəldiyini belə açıqlaya bilmirlər. Onsuz da, bu, darvinistlər üçün bəri başdan böyük və qəti bir süqutdan xəbər verir. Darvinist nağıllara qulaq asarkən bu həqiqəti qətiyyən unutmaq olmaz.

(ŞƏKİL BAŞLIĞI) Darvin dövründə elm adından uydurma xəbərlər ortaya atmaq asan idi. Çünki elm son dərəcədə primitiv idi. İnsanlar sözü gedən başlıqlara baxıb həqiqətən də milçəklə qohum çıxdığımıza, şimpanzelərin "əmioğlu"muz olduğuna və atlarla yaxın qohum olduğumuza inana bilirdilər. Ancaq elm darvinistlərin heç gözləmədikləri formada təkamül nəzəriyyəsinə meydan oxudu. Darvinistlərin bu absurd izahları elm tərəfindən yerlə-bir edildi. Ona görə də bu təbliğat üsulları hal-hazırda darvinistləri ancaq gözdən salır.
1- Vatan, 27.01.2003; 2- Hürriyet, 03.06.2006; 3- Hürriyet, 24.02.2000; 4- Posta, 25.05.2001;
5- Sabah, 19.11.2004; 6- Yarın, 22.08.2003; 7- Akşam, 25.05.2001; 8- Hürriyet, 20.04.2009;
9- Hürriyet, 06.11.2009.

(ŞƏKİL BAŞLIĞI) Darvinistlər xalqın cahil və savadsız olmasını istəyirlər. Onları qeyri-adi dərəcədə cəfəng məlumatlarla istədikləri kimi aldada bilmək istəyirlər. Onlara yer üzündəki möhtəşəm müxtəliflikdəki və mükəmməllikdəki canlı aləminin yaranması üçün "zaman + təsadüflər + palçıq" şəklindəki xəyali formullarının kifayət olduğunu təlqin etməyə çalışırlar. Darvinizm bax belə böyük bir səfehlikdir. Bu səfeh məntiqi təlqin edə bilmək üçün sözü gedən qəzet başlıqları ən böyük silahdır. Sanki uşaq aldadırmış kimi mövzu haqqında məlumatsız olan xalqı hipnoz altına almağa çalışırlar. Darvinizmin 150 illik dünya hakimiyyəti böyük miqyasda bu saxtakarlıqla mətbuat xəbərləri yolu ilə mümkün olmuşdur.
1- Vatan, 01.02.2010; 2- Vatan, 04.09.2004; 3- Sabah, 25.08.2003; 4- Radikal, 30.03.2007;
5- Vatan, 03.03.2009; 6- Radikal, 30.12.2004; 7- Vatan, 18.10.2006; 8- Habertürk, 23.04.2009.

Nüfuzlu mətbuata darvinizmi müdafiə etmələri üçün gizli dəstək verilir

Darvinistlər təbliğatlarını 150 ildir mətbuat yolu ilə gerçəkləşdirmiş, bütün psixoloji təlqin metodlarını mətbuatdan istifadə edərək həyata keçirmişlər. Əgər əllərində mətbuat kimi əhəmiyyətli güc olmasa, darvinist diktatorluğun dünya səviyyəsində saxta hakimiyyət qurması, təkamül saxtakarlığının dövlət qurumlarına, məktəblərə, universitetlərə girməsi, şübhəsiz ki, mümkün olmazdı.
Darvinizmin mətbuat yolu ilə təlqin edilməsi, inanılmaz dərəcədə uydurma olan bu fikrin inandırıcı vəziyyətə gətirilməsi üçün ilk qərar Darvin dövründə ateist masonlardan ibarət ali mason lojasında alınmışdır. Parisdəki 33-cü Dərəcə Misraim Masonluq Ali Şurasına bağlı şura üzvləri iclaslarında

təkamülün bir elm kimi göstərilib dəstəklənməli olduğunu açıqlayarkən hətta özləri də nəzəriyyə ilə lağ etməkdən çəkinmirlər:
“Məhz bu (təkamül nəzəriyyəsinin elmi olduğu) baxış bucağından istifadə edərək mətbuatımız yolu ilə dayanmadan bu nəzəriyyələrə qarşı kor-koranə inam oyadırıq. Ziyalılar… bilikləri ilə özlərini şişirdəcəklər və hər hansı məntiqi təsdiqə ehtiyac duymadan elmdən əldə etdikləri bütün məlumatları hərəkətə keçirəcəklər. Nümayəndəliklərimizdəki mütəxəssislər insanların zehinlərinə bizim istədiyimiz istiqamətdə təlim keçə bilməyimiz məqsədilə bütün hissələri hiyləgərcəsinə bir yerə yığıblar. Bir dəqiqəliyinə düşünün ki, bu çıxışlar boş sözlərdən ibarət deyil: darvinizm üçün planladığımız uğurlar üzərində diqqətlə düşünün…”1
Darvinizm də ateist masonların yaratdığı fransız lojasında alınmış bu qərar ilə kütlələrə yayıla bildi. O dövrdən etibarən də daima ateist masonların himayəsi altında qaldı. Dünya səviyyəsində bir hegemoniya qurmuş olan, bu səbəbdən, bütün dünyanı istədiyi kimi yönləndirəcək mətbuat ordusunun sahibi olan ateist masonlar bu yolla istədikləri xəbəri çıxardıb istədikləri mövzunu gündəm halına gətirib insanları istədikləri şəkildə yönləndirə bilirlər. Bu məkrli yönləndirmə siyasəti hələ də davam etməkdədir.
Darvinizmi ortadan qaldırma istiqamətindəki uğurlar ateist masonları narahat edir. Belə zamanlarda da dərhal mətbuat yolu ilə daha öncə də təsvir etdiyimiz intensivlikdə təlqin siyasəti dövrəyə girir. Darvinist mətbuat o dəqiqə fitillənir, dərhal bir saxta fosil tapılır, darvinist bir alim ön plana çıxarılır və bu fosil üzərində hekayə yazılır. Ateist masonların metodu bu formada həyata keçir.
Darvinizmlə bağlı xəbərlərin niyə müəyyən bir mətbuat orqanı tərəfindən dəstəkləndiyinə diqqət yetirmək lazımdır. Sözü gedən mətbuat həqiqi məlumatları, elmi dəlilləri və ya həqiqətləri yox, sadəcə ateist masonlardan aldığı əmrləri xəbər olaraq verir. Darvinizm yalanının dünya səviyyəsindəki saxta hakimiyyətini tədqiq edərkən bu gözlə yanaşmaq lazımdır.

(ŞƏKİL BAŞLIĞI) Ateist masonların rəhbərliyindəki nüfuzlu mətbuat tez-tez nəşrlərində təkamül cəfəngiyatını ön plana çıxaran xəbərlərə yer verir.

(ŞƏKİL BAŞLIĞI) Bir qisim nüfuzlu mətbuat ta Darvin dövründən bəri kütlə hipnozu etmək üzrə vəzifələndirilmişdir. Təkamül nəzəriyyəsinin heç bir şəkildə elmi dəlillərlə dəstəklənə bilməyəcəyini çox yaxşı bilən o dövrün darvinistləri təşkilatlı fəaliyyət yolu ilə darvinist diktatorluq meydana gətirmiş və saxtakarlığı yaymaq üçün bir qisim nüfuzlu mətbuatı vəzifələndirmişdir. Sözü gedən mətbuat bu gün də fəaliyyətdədir. İndi yeganə fərq darvinistlərin saxtakarlıq etmiş olduqlarının ifşa edilmiş olmasıdır.
1- Hürriyet, 30.05.2000; 2- Hürriyet, 14.01.1999; 3- Hürriyet, 14.01.1999; 4- Sabah, 18.07.2002;
5- Evrensel, 30.05.2008; 6- Sabah, 17.03.2000; 7- Star, 29.08.1999; 8- Hürriyet, 25.03.2000;
9- Vatan, 14.04.2007.
“Süni həyat yaratmağı bacardıq” təlqinləri ilə təkamülü həqiqət imiş kimi göstərməyə çalışarlar

Darvinizmi ortadan qaldıran çox dəlil vardır. Lakin təkamül nəzəriyyəsinin sonunu gətirən ən təməl məsələ həyatın başlanğıcıdır. Bir çox dəfə təkrarladığımız və israrla gündəmə gətirməyə də davam edəcəyimiz kimi, darvinistlər tək bir zülalın belə təsadüfən yaranmasını açıqlaya bilmirlər. Bu həqiqət təkamül nəzəriyyəsi üçün süqut nöqtəsidir.
Bu böyük məğlubiyyətdən boyun qaçıra bilmək üçün darvinistlər yenə inhisarlarındakı mətbuata baş vururlar. Süni həyat ssenariləri bu mövzuda ən məşhur aldatma üsuludur. Sözü gedən mətbuat orqanlarında vaxtaşırı gündəmə gələn “süni qan düzəltdik”, “süni kosmos düzəltdik”, “süni DNT yaratdıq”, “sintetik həyat yaxınlaşır”, “süni hüceyrə yaradıldı” xəbərləri də bu psixoloji müdafiə üsullarının bir parçasıdır.

Mövzu haqqındakı məlumatsız insanlar sözü gedən xəbərlərdən darvinizmin qarşısındakı ən böyük maneənin, yəni "həyatın başlanğıcı" probleminin həll edildiyi təəssüratına qapıla bilərlər. "Bu gün hüceyrə düzəltdilər, sabah insan da düzəldərlər" kimi sadəlövh təəssüratları yarana bilər. Onsuz da bu xəbərləri verərkən darvinistlərin məqsədi də insanları beləcə sehrləyə bilmək, bu qaranlıq hipnoz ilə beyinlərini uyuşdura bilməkdir.
Halbuki burada bir hiylədən söz gedir. Heç kəs yoxdan nəyisə yaratmağa heç yaxınlaşa bilməyib, bilməz də. Allahın diləməsi xaricində, belə bir şey mümkün deyildir. Alimlərin etdikləri hal-hazırda var olan qan, DNT və hüceyrədən istifadə edərək və ən əsası, ağıl işlədərək aparılan laboratoriya işidir. Darvinistlər lap istəyirlər mümkün olan ən ucqar nöqtələrə, atomlara qədər dərinliyə getsinlər, məsələn, on milyard atomu başdan yığmağa başlasınlar- burada yenə ağıl işlətmiş olacaq və bəri başdan mövcud olan atomlardan istifadə edəcəklər. Minlərlə alimin çalışması, texnoloji laboratoriyalar, milyonlarla dollarlıq xərc və saysız təcrübə nəticəsində əldə edilən bu nəticələr ancaq irimiqyaslı əmək və ağıl vəsiləsi ilə həyata keçə bilir. Yəni ağlın varlığı mütləqdir. Əldə edilən nəticə isə təkamül deyildir.
Bir DNT-nin içindəki nukleotidləri götürüb bir başqa hüceyrə içində fərqli şəkildə sintez etmək verilmiş sistemin içində ağıl işlədərək əmələ gətirilmiş yeni bir tənzimləmədir. Elmi cəhətdən uğurdur, mühüm elmi inkişaflara stimul yaradan gözəl bir inkişafdır, amma qətiyyən təkamül deyildir. Təkamül hələ həyatın başlanğıcı mövzusunda əlacsız formada yıxılmışdır. Yalnızca tək bir zülalın təsadüfən meydana gəlməsinin açıqlana bilməməsi darvinist iddiaların hamısının sonu mənasına gəlir. Darvinistlərin həmişə olduqca acınacaqlı aldatma üsulları olmuşdur. Elə bu səbəblə, bu üsulları ifşa edib verilən saxta təlqini aradan qaldırmaq son dərəcə asan olur. Darvinistlərin onlarla il boyunca saxta təbliğat üsulları ilə əldə etdikləri sehrli təsir tək bir həmlədə yerlə-bir olmaqdadır. Şübhəsiz, Allahın vədinə müvafiq olaraq, daima qalib gələcək olanlar Allahın tərəfdarlarıdır. Uca Rəbbimiz bir ayəsində belə buyurur:
Hər kəs Allahı, Onun Peyğəmbərlərini və iman gətirənləri özünə dost tutarsa, (hər iki dünyada işləri yaxşı gedər). Şübhəsiz ki, qələbə çalanlar məhz Allahın firqəsidir (Allahı özünə hami və dost seçən şəxslərdir). (Maidə Surəsi, 56)

(ŞƏKİL BAŞLIĞI) Müəyyən canlıda, onsuz da, mövcud olan hazır strukturlar istifadə edilərək, şüurlu varlıqların müşayiəti ilə, şüurlu şərtlər daxilində, onlarla illik laboratoriya işlərinin nəticəsində süni bir "klon" meydana gətirilməsi, şübhəsiz, elm naminə əhəmiyyətli bir irəliləyişdir, lakin bu, QƏTİYYƏN TƏKAMÜL DEYİLDİR. Yoxdan DNT və ya zülal yaradılmamış, sistemə əvvəlcə olmayan yeni bir məlumat əlavə edilməmişdir. Darvinistlər təkamülə dəxli olmayan elmi inkişaflardan istifadə etmək yerinə, əvvəlcə tək bir zülalın təsadüfən, yoxdan necə var ola biləcəyini izah etməlidirlər. Darvinistlərin dəhşətə qapıldıqları və əsla açıqlaya bilmədikləri ən böyük sual budur. Buna görə də darvinistlərin süni klonları əsas götürərək etdikləri spekulyasiyaların hamısı uydurmadır.
1- Bilim Teknik, 09.1979; 2- Radikal, 09.04.2006; 3- Cumhuriyet, 22.05.2010; 4- Habertürk, 25.05.2010;
5- Hürriyet, 25.05.2010; 6- Akşam, 22.05.2010; 7- Sabah, 11.02.2001; 8- Taraf, 22.05.2010.
Təsadüfləri saxta ilah kimi göstərməyə çalışarlar (Allahı tənzih edirik)
Darvinistlərin insanları aldatmaq üçün istifadə etdikləri, ağlasığmaz dərəcədə məntiqsiz bir ssenariləri vardır. Bu ssenari daxilində, elə bil, mümkünsüz heç nə yoxdur. Tək bir hüceyrədən minlərcə fərqli növdə canlılar meydana gəlir, qurudan birdən-birə sürünənlər qanad açır və quş olur, soxulcanlar vaxt keçdikcə insana çevrilir. Bu utandırıcı ssenaridə sözü gedən formalaşmaları, çevrilmələri, dəyişiklikləri əmələ gətirən xəyali güc isə, darvinistlərə əsasən, "təsadüflər"dir. Darvinistlər illərlə insanları beləcə aldatmışdırlar.

Təkamülçülər Darvin, hətta Şumer dövründən bəri bunu müdafiə etmişdirlər. Təsadüf iddiası təkamül nəzəriyyəsinin təməlini təşkil edən böyük biabırçılıq, darvinistlər baxımından üz qarası izahatdır.
Lakin bu iddianın çarəsizliyi, məntiqsizliyi və axmaqlığı bütün dünyaya, xüsusilə, "Yaradılış Atlası" vəsiləsi ilə ifşa edildikdən sonra darvinistlər bir anda başqa cür danışmağa başlamışlar. Artıq bu utanılacaq iddianı daha çox müdafiə etməyin xəcalətini çəkməmək üçün daha da məntiqsiz bir müdafiə psixologiyasına qapılmışlar. İndi darvinistlərə: "Sizə görə hər şeyi yaradan təsadüflərdirmi?"- deyildiyində: "Biz təsadüf demədik", - deyirlər. Ardınca: "Yaxşı, bəs təsadüf deyil, nədir?"- deyə soruşulduğu zaman: "Bəzi təsadüfi hadisələr nəticəsində yaranan bir proses", - deyə tamamilə uşaq kimi və bir o qədər ağılsız müdafiə yoluna girişirlər. Elə bu da darvinistlərin istinad nöqtəsinin nə qədər etibarsız olduğunun açıq və aydın göstəricisidir.

Darvinistlərin insanları aldatmaq, insanlar üzərində sehr təsiri yarada bilmək üçün elmi terminlər və formullardan istifadə edərək özlərində elmi izahat verirmiş təəssüratı yaratmağa çalışdıqlarını bundan öncə qeyd etmişdik. Təsadüf yalanı da yenə eyni üsul istifadə edilərək insanlara məqbul göstərilməyə çalışılır. Təkamülçü nəşrlərdə, nümunə olaraq, bir dinozavrın qanadlanıb uçduğu yalanı latınca terminlərin və adların çoxluq təşkil etdiyi, guya, elmi görünüşlü məqalənin sətirlərində izah edilir. Halbuki diqqət edilərsə, sözü gedən xəyali prosesdə və bu ağlasığmaz dərəcədə gülünc hekayədə şüurlu, ağıllı, hadisələrə müdaxilə edən, hadisələri istiqamətləndirən, məntiqli çıxarışlar apararaq ən uyğun olanını təyin edən, seçim aparma, məntiq yürütmə, doğrusunu ayırd etmə qabiliyyətinə sahib olan bir ağıl yoxdur. Darvinizm bir şüurun varlığını qəbul etmir. Saxta təkamüldə hadisələrin hamısı şüursuz, ağılsız, iradəsiz, kor təsadüflər tərəfindən həyata keçirilmişdir. Təsadüflər darvinistlərin möcüzələr yaradan, yoxdan var edən, xətaya yol verməyən, gələcəkdəki hadisələri əvvəlcədən müəyyənləşdirib bunun üçün tədbirlər alan saxta ilahlarıdır. Darvinistlər məhz bu saxta ilahı özlərinə görə yaradıcı güc kimi göstərməyə çalışır (Allahı tənzih edirik) və bu hiyləgər açıqlamalar yolu ilə Allah inancından insanları uzaqlaşdırmağa çalışırlar. Darvinist sehrin insanları zaman içində ateizmə sürükləməsinin, darvinistlərin böyük qisminin canla-başla Allah inancına qarşı mübarizə içində olmasının özülündəki əsl səbəb bax budur. Darvinizmə inananlar fərqində olaraq və ya olmayaraq, təsadüf bütünün hipnozu altına girməkdə və qaçılmaz olaraq Allah inancından uzaqlaşmaqdadırlar.
Təfərrüatlarla diqqəti yayındırmağa çalışarlar
Çaşdırıcı təfərrüatlar və cəfəng xəbərlər darvinistlərin psixoloji müdafiə üsullarının əhəmiyyətli hissəsini təşkil edir. Məntiqsiz təfərrüatlarla zehinləri örtmək darvinist hipnoz üsulunun bir parçasıdır. Darvinist yayımlarda bu məqsədlə verilən xəbərlərlə əsl hədəf mövzu haqqındakı məlumatı olmayan bəzi insanlara təkamülün saxtakarlıq olduğunu unutdura bilmək və onların beyinlərini "kartofla, yoxsa soxulcanla daha yaxın qohumuq?" kimi qeyri-adi dərəcədə axmaq bir sual ilə məşğul edə bilməkdir. Darvinistlər məntiqsiz təfərrüatlardan məhz bu məqsəd üçün istifadə edirlər.

1- Hürriyet, 07.02.2003; 2- Hürriyet, 19.11.2008.
Hər hansı bir darvinist nəşrdə "kenqurularla qohum imişik", "ac qaldıq, ona görə dik yeriməyə başladıq", "hıçqırıq qurbağadan miras qalıb" formasında qeyri-adi dərəcədə məntiqsiz xəbərlərin hamısının məqsədi diqqəti yayındırmaqdır. Guya, təkamül sübut edilmiş bir həqiqətdir, yerdə ancaq hıçqırığın meydana gəlməsi problemi qalıbmış kimi bir təəssürat oyandırmağa çalışırlar. İntensiv şəkildə belə xəbərlərin təsirində qalan, mövzu haqqında lazımınca məlumatı olmayan şəxslər bu təlqini asanlıqla alırlar. Bu aldadıcı xəbərlərin təsirilə təkamülün açıqlaya bilmədiyi bir neçə kiçik mövzu qaldığını, onlara da nəhayət bir açıqlama gətirildiyini zənn edirlər. Darvinistlərin illərdir

davam etdirdikləri kütləvi fırıldaq bu sistemlə işləyir. Kütlə hipnozu bu saxta üsulla uğurlu şəkildə davam etdirilir.
Burada təkrarən xatırladaq:
• Darvinistlər hələ tək bir zülalın təsadüfən əmələ gəlməsini açıqlaya bilmirlər.
• İrəli sürə biləcəkləri tək bir dənə belə ara-keçid fosili yoxdur.
• 500 milyondan artıq fosil təkamülü yerin dibinə soxmuşdur.
• Canlılardakı kompleksik darvinistlərə ən böyük zərbələrdən birini vurmuş, təkamüllə əsla açıqlaya bilməyəcəkləri sistemlər üzə çıxarmışdır.
• İddia etdikləri bütün fosillərin saxta olduğu ortaya çıxmış, hətta bilərək saxtakarlıq etdikləri aydın olmuşdur.
• Fosillərdən canlıların birdən-birə ortaya çıxdıqları və milyonlarla il boyunca heç bir dəyişikliyə uğramadıqları açıq şəkildə məlum olmuşdur.

Elmi dəlil bunlardır. Darvinistlər bunlara izahat gətirə bilmədikləri üçün qeyri-adi axmaqlıqdakı xəbərləri sərlövhədən verirlər. Çünki çarəsizdirlər. Elm adından ortaya çıxmış, lakin heç bir elmi dəlili olmayan saxta nəzəriyyəni saxtakarlıq xaricində başqa necə müdafiə edəcəklər? Fəqət bu aralar bu məntiqsiz xəbərlərin də artıq təsirsiz olduğunu başa düşmüşdürlər. Hal-hazırda məktəb çağındakı uşaqlar belə, darvinistlərin bu növdən izahları ilə qarşılaşdıqları zaman onlardan hər şeydən əvvəl bir zülalın əmələ gəlməsinin izahatını vermələrini gözləyirlər. Belə ki, aldanışın ömrü uzun çəkməmişdir.

(ŞƏKİL BAŞLIĞI) Ən geniş yayılmış darvinist təbliğat taktikalarından bir dənəsi, hipnoz altındakı insanları təfərrüatlara boğmaq və saxta iddialarla onları əsas mövzudan- təkamülün saxtakarlıq olduğu həqiqətindən uzaqlaşdıra bilməkdir. Darvinistlər, guya, təkamüllə bağlı hər bir şey isbat edilmiş, sadəcə olaraq, yerdə hıçqırığın hansı heyvandan irs qaldığı, yaxud da balinanın fil olub-olmadığı mövzuları qalıbmış kimi cəfəng və uydurma xəbərləri gündəmə gətirirlər. Savadsız insanı bu xəbərlərlə aldada bilmək çox asandır. Sözü gedən insan artıq təkamülü isbat edən hər hansı bir dəlil olub-olmadığını mühakimə etməyi ağlına gətirməz. Çünki təfərrüatlarda boğulmuş, həqiqətləri araşdırmaqdan uzaqlaşmış, darvinist sehrin təsirində qalmışdır.

1- Yüzyıl, 04.03.1998; 2- Hürriyet, 16.10.1999; 3- Sabah, 16.08.2002; 4- Akşam, 18.10.2006; 5- Bugün, 23.04.2007; 6- Vatan, 20.03.2006; 7- Sabah, 30.12.2008; 8- Posta, 14.04.2007; 9- Posta, 18.02.2003.

Oxşarlıqları dəlil kimi istifadə etməyə girişərlər

Darvinistlər həyatın başlanğıcı mövzusunun nəzəriyyələrinə son qoyduğunu, fosillərin təkamülü təkzib və məhv etdiyini, mutasiyaların da heç bir şəkildə təkamülə yol aça bilməyəcəyini çox yaxşı bildikləri üçün yenə insanlarda sehrli təsir yaradacaq, bir o qədər də onlara məntiqli kimi görünəcək başqa bir aldadıcılığın ardına sığınırlar: Canlılar arasındakı oxşarlıqlar!

Canlılar arasındakı bənzərliklər sanki təkmilləşmənin bir sübutu imiş kimi davamlı olaraq darvinistlər tərəfindən dilə gətirilir. Çünki bəzi insanlar adətən bu aldanışa qapılmağa meyilli olurlar. Meymunun insana oxşarlığı o qədər qəti dəlil qismində təqdim edilir ki, bu təlqini alan bəzi insanlar zooparka getdikləri və ya meymunlarla bağlı sənədli film izlədikləri zaman müəyyən bir istiqamətdə qənaətə gəlirlər. Belə ki, darvinist yalandan olduqca təsirlənmiş olduqlarına görə, gördükləri canlının "bir az inkişaf etsə, təraş olsa, yaxşıca qidalansa" rahatlıqla insana çevrilə biləcəyinə dair bəsit bir məntiqlə düşünməyə başlayırlar. Bir neçə nəzəri oxşarlıq darvinist təlqinin vüsət almasına fürsət yaratmaqdadır.

Halbuki meymun nə qədər insana bənzəyir-bənzəsin, Allahın izni ilə, bu dünya üzərində var olduğu müddətcə meymundan fərqli bir canlı olmayacaq, nə qədər təlim keçirsə-keçsin insana çevrilməyəcəkdir. Nə edirsə-etsin, Allahın diləməsi xaricində, insanı insan edən "ruh"a sahib olmayacaqdır.

İnsanı insan edən “ruh”udur. Bir canlı ancaq ruh sahibi olduğu müddətcə insan vəsfini qazanır. İnsan “mən mənəm” deyə bilən, beynində bir görüntü yarandığının və onu izlədiyinin fərqinə vara bilən şüur sahibi varlıqdır. İnsan fiziki olaraq nəyə bənzəyirsə-bənzəsin, ruh sahibi olduğu müddətcə insandır. Onu digər bütün canlılardan ayıran ən böyük gerçək budur. Darvinistlər bu həqiqəti ört-basdır etməyə çalışırlar. Halbuki təkamül nəzəriyyəsi ruhun qəti varlığı qarşısında ən böyük zərbələrindən birini alır. Məhz bu səbəbdən, darvinistlər tərəfindən bu mövzu xüsusi etina ilə gündəmə gətirilməməyə çalışılır.
Canlıların oxşarlığı qətiyyən təkamül üçün dəlil deyildir. Canlılar bir-birilərinə, əlbəttə ki, oxşayarlar. Hər biri eyni planetdə eyni havanı udur, eyni elementlərin birləşməsindən ibarətdirlər, eyni qidalarla qidalanıb eyni mühiti paylaşırlar. Bütün canlılar müştərək olan möhtəşəm molekulyar sistemlərlə təchiz edilmişdir. Hər bir sistem hüdudları olduqca həssas olan bu Dünya şəraitinə mükəmməl uyğunlaşacaq formada var edilmişdir. Bu səbəbdən bənzərliklər Uca Allahın yaratma sənətinin bir dəlilidir. Uca Rəbbimiz bir ayəsində belə buyurur:
“... Yoxsa onlar Allaha Onun yaratdığı kimi yaradan şəriklər qərar verdilər və onların nəzərincə bu yaratma bir-birinə bənzər göründü?! De: “Allah hər şeyin xaliqidir. O birdir, qəhr edəndir (hər şeyə gücü yetən, hər şeyə qalib gələndir)”. (Rəd surəsi, 16)

(ŞƏKİL BAŞLIĞI) Bir canlını insan edən o canlının xarici görünüşü deyil, daşıdığı “ruh”dur. Darvinistlər bu həqiqəti ört-basdır etməyə çalışırlar. Halbuki insanın ruh sahibi olması həqiqəti darvinistlərin ən böyük çıxılmaz vəziyyətlərindən biridir və insanın xəyali təkamülünə dair bütün iddiaları aradan qaldırır.

(ŞƏKİL BAŞLIĞI) Şimpanzenin alət düzəldə bilməsi, qıdıqlandığı zaman insan kimi gülməsi, balasına şəfqət göstərməsi “insanlaşdığı”nın dəlili deyildir. Fiziki oxşarlıqlar heç vaxt təkamülün sübutu ola bilməz. İki canlı arasındakı 0,001 %-lik bir fərq belə darvinistlərin əsla aşa bilməyəcəkləri nəhəng molekulyar fərqdir. Lakin bundan da qabaq, şimpanze istər fiziki olaraq insanın lap eynisi olsun, ruh sahibi olmadığı müddətcə əsla və əsla insan olmayacaqdır. Beləliklə də, darvinistlərin bu başlıqlarda nümunələri görünən təbliğatları, həqiqətdə, böyük bir saxtakarlıqdır.
1- Birgün, 19.02.2007; 2- Posta, 26.02.2007; 3- Hürriyet, 18.02.2002; 4- Birgün, 22.09.2008; 5- Akşam, 18.04.2007; 6- Birgün, 28.04.2007; 7- Evrensel, 21.03.2003; 8- Posta, 13.04.2007; 9- Radikal, 04.09.2001; 10- Radikal, 12.11.2009; 11- Hürriyet, 01.10.2005; 12- Radikal, 06.06.2009; 13- Radikal, 13.04.2007.

İqtibaslar:
1. John Daniel, “Two Faces of Freemasonry”, Day Publishing, 2007, səh. 121.
Darvinist təbliğat üsulları (2/3)
Təkamülü inkar edənlərə qarşı əhatəli hədə-qorxu siyasəti tətbiq edirlər
Darvinizm üçün qolçomaqlıqla, məcburən, saxtakarlıqla yer açılır. Darvinizmin illərdir gündəmdə olmasının tək səbəbi bütün dünyaya hakim bir sistem olan darvinist diktatorluqdur. Darvinizm bu diktat rejimi nəticəsində insanlara yeridilmiş, zorla, icbar yolu ilə qəbul etdirilmişdir. Darvinist hipnoz insanların heç agah olmadıqları şəkillərdə təbliğ edilmiş, böyük bir kütlə bu hipnozun təsiri altında qalmışdır. Bu mənfur diktatorluğun fəndgir taktikaları ilə darvinizm dünya səviyyəsində sanki təkzibedilməz, etirazı mümkün olmayan hala salınmışdır.

(ŞƏKİL BAŞLIĞI) Dünyanın heç bir universitetində darvinizmə şübhə ilə yanaşan təhsil işçisinə yer yoxdur.
Darvinizm bu gün iri miqyasda dünyadakı dövlətlərin himayəsi altındadır. Çox ölkədə dövlət müəssisələri tərəfindən dəstəklənir və hətta zorla qəbul etdirilir. Batil darvinizm dininə qarşı

gələnlər isə yenə eyni zorakı üsullarla susdurulurlar. Bunun nümunələri yüzlərcədir. Təkcə təkamül nəzəriyyəsini tənqid etdikləri üçün işlərindən atılan professor və alimlərdən bəziləri qarşı-qarşıya qaldıqları bu hədə-qorxu siyasətini son illərdə açıq-aşkar ifşa etməkdədirlər. Şagirdlər sinifdə qalır, dövlət qurumlarında nüfuzlu adlar karyeralarından olurlar. Universitetlər ancaq darvinist təhsilin verildiyi və ancaq darvinist təhsilin qəbul edildiyi diktat rejiminin bir hissəsinə döndərilmişdir. Darvinizmin inkarının qarşısı alınır, çünki əks halda, batil darvinizm dininin müdafiəçilərinin heç bir əsası olmayan bu nəzəriyyəni canlı saxlaya bilmək üçün bir yolu qalmayacaqdır. Yalan çox ucadan deyilir və bunun yalan olduğunu iddia etmək cinayət sayılır. Elm adı altında ortaya atılan nəzəriyyə elmdən tamamilə uzaq, rəsmi surətdə və açıq-aşkar təkzib edilməsinin qarşısı alınan, batil, doqmatik inanc sisteminə döndərilmişdir. Əsl maraqlı olanı isə, bunun hamının gözü qabağında, heç çəkinmədən edilməsidir.

(ŞƏKİL BAŞLIĞI) Təkamül nəzəriyyəsinə şübhə ilə yanaşdıqları üçün işlərindən atılan professor və alimlərdən sadəcə bir neçəsi.
Elə bundan ötrü də “darvinizm bütün dünyada qəbul edilir” şəklindəki sayıqlamaların heç bir mənası yoxdur və bunlara heç bir şəkildə məhəl qoymamaq lazımdır. Darvinist diktatorluğun sistematik və hiyləgər fəaliyyətləri, onsuz da, belə bir təsdiqi labüd etmişdir. Bəzi insanlar vəzifələrindən olmamaq, karyeralarını tərk etməmək üçün məcburən bu saxta nəzəriyyəni qəbul edirmiş kimi görünür, şagirdlər sinifdən-sinfə keçə bilmək üçün təkamülü dəstəkləyən suallara cavab vermək məcburiyyətində qalırlar. Tarixin ən geniş əhatəli diktat tətbiqetməsi darvinist diktatorluq tərəfindən dünya səviyyəsində gerçəkləşdirilməkdədir.

(ŞƏKİL BAŞLIĞI) Darvinist diktatorluq bütün dünyanı ələ keçirmiş vəziyyətdədir. Təkamül bu diktatorluğun yeritmə mexanizmi səbəbi ilə bütün dünyada dövlət qanunları ilə qorunmaqdadır. Təkamül nəzəriyyəsinə qarşı çıxmaq və ya təkamül nəzəriyyəsinin etibarlılığını sual altında qoymaq qeyri-mümkündür. Bu cür sorğu-sual aparanlar dərhal müəyyən edilir, o dəqiqə susdurulurlar. Darvinist diktatorluğun inhisarındakı mətbuatın təsiri ilə ictimai təzyiq və ictimai qınaq yaradılır və təkamülü sorğu-suala tutan şəxs və ya qurum üzərində misli görünməmiş qara-qorxu siyasətinə start verilir. Professorların qorxudan universitetlərdə təkamül tədrisinə davam etmələri, Papanın öz evində təkamül konfransı verməsi, kilsələrin Darvindən üzr istəmələri sırf bu səbəbdəndir. 150 illik, tarixin ən böyük saxtakarlığı olan təkamülün bütün dünyaya yayılması və saxta hipnozunu kütlələrə çatdırması darvinist diktatorluğun üsulları ilə həyata keçirilmişdir.
1- CnnTurk, 13.03.2009; 2- Milliyet, 21.12.2005; 3- Radikal, 13.03.2009; 4- Hürriyet, 14.01.2007; 5- Hürriyet, 15.09.2008; 6- Cumhuriyet, 14.03.2009; 7- Cumhuriyet, 08.07.2004; 8- Radikal, 06.10.2010; 9- Radikal, 31.07.2009; 10- Radikal, 22.12.2005.
Böyük bir izdihamlı kütlənin təkamülə inandığı yalanını təlqin edirlər
Darvinist diktat rejiminin hüdudları üzə çıxdığı zaman, niyə təkamülün bütün dünyada dəstəklənirmiş kimi göründüyü sualı öz cavabını asanlıqla tapacaqdır. İnsanların bir qismi adətən böyük kütlənin etdiyi şeylərin məqbul olduğuna inanırlar. Kütləni haqlı hesab etmək istəyərlər. Xalq arasındakı "palaza bürün, ellə sürün" deyimi bu düşüncənin məhsuludur. Halbuki Quranda "əgər sən yer üzündə olanların çoxuna itaət etsən, onlar səni Allahın yolundan azdırarlar...” (Ənam surəsi, 116) ayəsində bildirildiyi kimi əksəriyyət çox zaman Allahın yolundan azdırıcı kütlə təlqininə sahib olur. Əksəriyyətə yox, Qurana və vicdana tabe olmaq əsasdır. Dünya müharibələri əsnasında kütlələri ölümə aparan, Hitler Almaniyasını, Mussolini İtaliyasını, kommunist Rusiyanı qana bulayan yenə bu izdiham psixologiyasıdır. Özülünü darvinist ideologiyanın təşkil etdiyi bu xətalı düşüncə tərzi təkcə bu dünya müharibələri və onların mənfur təsirləri nəticəsində 200 milyondan artıq insanın ölümünə yol açmışdır. Darvinizm məsələsində də insanları ən çox aldadan ünsürlərdən bir dənəsi bax bu izdiham ənənəsidir.

(ŞƏKİL BAŞLIĞI) Darvinist mənşəli zalımanə fəlsəfi cərəyanların bəşəriyyətə gətirdiyi bəlalar milyonlarla məsum insanın ölümünə səbəb olmuşdur.
Yaxşı, bəs bütün məntiqsizliyinə baxmayaraq, əksəriyyətin darvinizmi mənimsəməsi necə təmin edilib? Bunun səbəbləri bunlardır:

- Darvinizm dövrün ateist masonları tərəfindən mütəşəkkil formada təşkil edilmiş batil inanc sistemidir. Başlanğıcından bu həddə qədər bütün inkişafı bu təşkilatlı plan daxilində həyata keçmişdir.
- Ateist masonlar inhisarlarına aldıqları bəzi mətbuat-nəşriyyat vasitələri yolu ilə əvvəl-əvvəl olduqca əks-reaksiya alan təkamül fikrini dərindən və səssiz-səmirsiz yaymışlar, bir kütlə hipnozu meydana gətirmişdirlər.
- Ateist masonların inhisarındakı jurnallar, qəzetlər, televizorlar və digər nəşriyyat orqanları vasitəsilə təkamülün həqiqət olduğuna dair aldadıcı təlqin verilmişdir. Bu təlqin hələ də davam etməkdədir.
- İnsanlar üzərində sehr təsiri yarada bilmək üçün saxta şəkillər, rekonstruksiyalar, saxta fosillər, saxta cızma-qaralar düzəldib əyani təlqin metodları inkişaf etdirmişlər.
- Tarixin ən böyük saxtakarlığı olmasına baxmayaraq, təkamülü tədris planına elm imiş kimi daxil etmişdirlər.
- Ateist masonların inhisarındakı darvinist diktatorluq bütün dünyada təkamülü himayəsi altına almış, bəzi dövlətlərin hökumət orqanları bu himayədarlığı şəxsən öz öhdəsinə götürmüşdür. Təkamülə qarşı çıxmaq, sözün əsl mənasında, milli cinayət sayılmış, insanlar, təhsil ocaqları, idarələr bu səbəblə məhkəməyə verilmişdir.
- Təkamülə qarşı gələnlər zərərsizləşdirilmiş, susdurulmuş və işlərindən xaric edilmişlər. Təkamül etirazı mümkün olmayan həddə gətirilmişdir.
- Elm bütövlükdə təkamülü təkzib etmiş olmasına baxmayaraq, təkamülə inananları elmi, inanmayanları elmdən kənar elan etmişlər və bu təlqin nəticəsində təkamülü qəbul etməyənlərin cəmiyyətdən təcrid olunmasını təmin etmişdirlər.

Göründüyü kimi darvinizm, elmi olduğuna görə yox, tamamilə məcburi yolla təlqin edildiyi və darvinist diktatorluq tərəfindən qorunduğu üçün dünyada dəstək tapmışdır. Əksəriyyətin bu saxta nəzəriyyəni dəstəkləyirmiş kimi görünməsi insanları aldatmamalıdır. Çünki bu insanların bir qismi darvinizmin dünya səviyyəsində vüsət almış tarixin ən böyük saxtakarlığı olduğunu bilmir, bir qismi isə işini itirməmək və ya ətrafından reaksiya toplamamaq üçün darvinizmi dəstəkləyirmiş kimi görünür.
Əlbəttə ki, bu insanlar arasında azlıq təşkil etsə də, darvinizmi bir ideologiya, saxta din olaraq mənimsəyən insanlar da mövcuddur. Bu insanlar Allahın Quranda bildirdiyi kimi, onsuz da, Allahın varlığını inkar etmək və batil olana uymaq üçün yaradılmışdırlar. Qurana əsasən, bu insanlar möcüzələr belə görsələr inanmayacaqlar. Onun üçün də belə insanların varlığı insanları aldatmamalıdır. Uca Allah Quranda bu insanları belə tanıdır:
"Əgər Biz (istədikləri kimi) mələkləri onlara göndərsəydik, ölülər onlara danışsaydı və hər şeyi dəstə-dəstə toplayıb onların qarşısına qoysaydıq belə, Allah istəmədikcə, onlar iman gətirməzdilər. Lakin onların əksəriyyəti (bunu) bilməz". (Ənam surəsi, 111)
Quranda açıq surətdə tanıdılan bu insanlar, əslində, etdiklərinin yanlış olduğunu bilirlər. Darvinizmin saxta və yanlış olduğunun, özlərini və bütün varlıqları Yaradanın Uca Allah olduğunun fərqindədirlər. Lakin onlar Quranda bildirildiyi kimi daxilən möhkəm əmin olduqları halda, təkəbbür içində olmalarından ötrü etiraz və inkar içindədirlər. Bir ayədə Uca Allah belə buyurur:
"(Möcüzələrimizin) həqiqiliyinə daxilən möhkəm əmin olduqları halda, haqsız yerə və təkəbbür üzündən onları inkar etdilər. (Ya Rəsulum!) Bir gör fitnə-fəsad törədənlərin axırı necə oldu!" (Nəml surəsi, 14)
Cəmiyyətdə təklənməklə hədələyib tərəfdarlarını itirməməyə səy göstərərlər

Darvinizm darvinist diktatorluq tərəfindən 150 ildir çox geniş müdafiə altında saxlanılır, bəzi dövlətlərin qanunları tərəfindən himayə altına alınır, nəzəriyyəni qəbul edənlər təriflənib nəzəriyyəni rədd edənlər işlərindən atılır və məktəblərdə zorla oxudulur. Beləliklə, bu cür bir şəraitdə bir şəxsin darvinizmi qəbul etmədiyini açıq surətdə ifadə etməsi elə də asan deyil. Belə şəxslər darvinist təlqinin qatı təsirinə düşmüş insanlar tərəfindən qəfildən təklənir və təcrid edilirlər. Bax bu, darvinist diktaturanın tərəfdarlarını itirməmək üçün işlətdiyi psixoloji hədə-qorxu metodlarının ən başlıcalarındandır.
Ömrü boyunca təkamül mövzusunda ixtisas qazanmış və professorluğa qədər yüksəlmiş bir insanın bir gün çıxıb darvinizmi rədd etdiyini, təkamülün səhv olduğunu gördüyünü açıqlaması ciddi bir hadisədir. Əgər bir professor artıq təkamülü qəbul etmədiyini açıqlasa; bütün karyerasının sona çatmış olacağını, universitetdəki populyar vəzifəsindən atılacağını, əksəriyyəti darvinistlərdən ibarət dost çevrəsinin çox sürətlə onu tərk edəcəyini və bunlarla bərabər öz əleyhinə olduqca güclü təbliğata məruz qalacağını da bilir. Bu, daima belə olub. Bundan qabaq nümunələrini verdiyimiz professorlar eynilə bu səbəbdən işlərindən və yaxın dostlarından qalmışdırlar. Kimisi haqqında təkrarən iş tapa bilməməsi üçün internet üzərindən qara-piar kampaniyası başladılarkən, kimisi də işə götürənləri tərəfindən "intellektual terrorist" elan edilmişdir.
İllərini təkamülçü kimi keçirmiş, hətta bu istiqamətdə karyera qurmuş birisi üçün təkamül nəzəriyyəsini rədd etmək bu insanın həyatında əhəmiyyətli dəyişiklikləri özü ilə birlikdə gətirir. Belə bir insan üçün darvinizmin özü ilə yanaşı gətirdiyi bütün bəlalı ideologiyalar bir anda qüvvəsini itirir. Kommunistlik, ateistlik və bunun kimi bir çox sapqın inancın bir anda heç bir dəyəri qalmaz. Bir satanist darvinizmin etibarsızlığını gördüyü anda onun üçün satanist olmağın bir mənası yoxdur artıq. Mərhəmətsizcəsinə insanları qətl edə bilən bir terrorist darvinizmin etibarsızlığını anladığın zaman, dayanıb, etdiyi şeyin nə qədər məntiqsiz və vicdansızca olduğundan agah olar. İnsanları öldürməyə səlahiyyət verən sapqın ideoloji istinad nöqtəsi bir anda kül olub sovrulmuşdur. Beləliklə, darvinizmi rədd etmək həyatını bu sapqın ideologiyaya söykəmiş olan insanların bütün baxış bucaqlarını, bütün dəyərlərini, bütün yaşayışını dəyişdirir.
Darvinizmi rədd edənlərə qarşı bu təkləmə siyasəti darvinistlərin yapışdığı, bəlkə də, ən effektiv psixoloji silahlardan biridir. Bu təkləmə siyasətinin asanlıqla öhdəsindən gələ bilməyəcəyini düşünən bəzi insanlar inanmaya-inanmaya təkamülçü kimi görünməyə məcbur qalmışdırlar. Təkamülə inanmadığı halda təkamül konfransları verən, məntiqsizliyini bildiyi halda bu təmayüldə kitablar və məqalələr yazan, tam əks qənaətdə olduğu halda təkamülçülərin olduğu mühitlərdə nəzəriyyəni canla-başla müdafiə edirmiş kimi görünmək məcburiyyətində qalan olduqca çox sayda insan vardır. Allahın varlığını açıq-aşkar görüb bildiyi halda ateist dostlarının içində bu düşüncəsini dilə gətirə bilməyən insanların sayı, xüsusilə, son illərdə çox artmışdır.
Bu hədə-qorxu siyasəti sözü gedən insanları narahat etməməlidir. Çünki darvinist diktatorluğun dırnaqarası hakimiyyəti həddən artıq keçici, gücsüz və zəifdir. Allahın vədinə müvafiq olaraq, mütləq batil yox olacaq və Haqq olan qalib gələcəkdir. Əsas da bu bilinməlidir ki, Allah səmimi olaraq Özünə yönələn, vicdanına uyan, içində yaşadığı cəmiyyətdə qınaq obyektinə çevrilməyə razı olaraq doğru və Haqq olanın müdafiəçiliyini edən insanın yanındadır. Qalib gələnlər mütləq Allahın dostları olacaqdır. Uca Rəbbimiz bir ayəsində belə bildirir:
"Əgər Allah sizə yardım edərsə, heç kəs sizə qalib gələ bilməz. Yox, əgər sizi zəlil edərsə, Ondan sonra kim sizə kömək edə bilər? Buna görə də möminlər Allaha təvəkkül etsinlər!" (Al-i İmran surəsi, 160)

(ŞƏKİL BAŞLIĞI) Əgər bir professor bir gün təkamülə inanmadığını açıqlayarsa, bütün karyerasının sona çatmış olacağını, ailə və dost çevrəsi tərəfindən tək qoyulacağını, məzəmmət olunacağını, çox güclü əks-təbliğata məruz qalacağını, əleyhinə yayılan xəbərlər səbəbi ilə daha iş tapa bilməyəcəyini, əzilib psixoloji cəhətdən sarsıdılacağını çox yaxşı bilir. Məhz bu gərgin psixoloji təyziq səbəbi ilə bu gün bir çox professor təkamülə inanmadığı halda inanırmış kimi

görünmək məcburiyyətindədir. Darvinizmi qəbul etməyənlərə qarşı bu təkləmə siyasəti darvinistlərin əl atdıqları, bəlkə də, ən təsirli psixoloji silahlardandır. Təkamül- təhdid, təkləmə, əks-təbliğat və xuliqanlıq üsulları ilə zorla müdafiə etdirilən böyük bir saxtakarlıqdır.
1- Cumhuriyet, 14.03.2009; 2- Evrensel, 04.12.2009; 3- HaberTurk, 26.02.2011; 4- CnnTürk, 13.03.2009; 5- Radikal, 12.03.2009; 6- Birgün, 04.12.2009; 7- CnnTürk, 13.03.2009; 8- Posta, 12.03.2009; 9- Radikal, 04.12.2009; 10- Cumhuriyet, 15.03.2009
Saxta anketlər, statistikalar hazırlayır, təkamülü qəbul edənlərin sayını yüksək göstərməyə çalışırlar
Darvinistlərdən elmi bir dəlil istənilən zaman adətən bu cavabı verirlər: "Təkamül, onsuz da, bütün dünyada qəbul olunur!" Darvinistlər bunu dedikləri zaman təkamüllə bağlı bütün problemlərin aradan qalxacağını, insanların bununla qane olacağını və bunun darvinizmi qəbul etmək üçün kifayət edəcəyini düşünürlər. Doğrudan da, bu psixoloji təlqin metodu indiyə kimi bir qisim insanlar arasında təsirli olmuşdur. Bəzi insanlar nəzəriyyənin elmi dəlillərlə dəstəklənməsini elə də vacib görmür, ictimai razılığa baxırlar.
Elə buna görə də darvinist diktatorluq bütün dünyanın təkamülü qəbul etdiyi təəssüratı yarada bilmək üçün mümkün olan hər varianta əl atır. Bunlardan biri saxta anketlər və statistikalar hazırlamaq, bu anketlər vasitəsilə təkamülə inananların sayını artıq göstərmək və bunların nəticələrini darvinist diktatorluğun nəzarəti altındakı mətbuat orqanlarında böyük hay-küylə yayımlamaqdır.
Sözü gedən anket nəticələrinə baxan bir insan Allaha inanan və təkamülü qəbul etməyən insanların sayının, xüsusilə, Amerika, İngiltərə kimi ölkələrdə çox az olduğunu düşünə bilər. Bundan qabaq izah etdiyimiz kütlə psixologiyasının gətirdiyi təsir səbəbi ilə təkamülə inanan saxta çoxluğun doğru yolda olduğunu fikirləşə bilər. Halbuki bu bir fənddir. Həqiqətdə, belə bir anket heç vaxt həyata keçirilməmişdir. Bu nəticələr darvinist diktatorluğun nəzarəti altındakı mətbuat orqanlarında insanlara eşitdirmək üçün xüsusi təyin edilmiş saxta rəqəmlərdir. Darvinistlər bu saxta anketlər və statistikalarla həmişə olduğu kimi insanları aldatmaqdadırlar.
Bir çox ölkədə bu sorğu həqiqətən keçirilmiş, insanlardan həqiqətən nə düşündükləri soruşulmuşdur. Əldə olunan nəticələrlə darvinistlərin iddiaları arasında yerlə göy qədər fərq vardır. İnsanlar təkamülü qəbul etmir, bütün varlıqları Allahın yaratdığına inanırlar. Bu nisbət gün keçdikcə daha da artmaqdadır. Keçirilən real anketlərin ən böyüklərindən biri, təkamülü qəbul etməyən ölkələrin başında Türkiyənin olduğunu göstərmişdir. Siyahıda Türkiyənin ardınca gələn bütün ölkələrin arasında təkamülü rədd edən ikinci ölkə isə Amerikadır.1
Yəni darvinist bir yayımda hər hansı bir anketin və ya çıxarılan statistikaların nəticəsi kimi təkamülə inananların sayı çox imiş kimi göstərilirsə, bu nəticənin aldadıcı olduğu unudulmamalıdır. Həqiqətdə, bütün dünya səviyyəsində keçirilən anketlər Amerikada, Kanadada və İngiltərə başda olmaq üzrə bəzi Avropa ölkələrində təkamülün ciddi surətdə tərk edildiyini göstərməkdədir.

(ŞƏKİL BAŞLIĞI) "Guardian" qəzetində İngiltərədə keçirilən sorğu nəticəsində ingilislərin yalnız 25 %-in təkamülə inandığı barədə çıxan xəbər eyni mətbuat orqanının internet saytında tələm-tələsik dəyişdirilmiş və İngiltərə əhalisinin yarısının təkamülə inandığı şəklində verilmişdi. Keçirilən real anketlərin ən böyüklərindən biri təkamülü qəbul etməyən ölkələrin başında Türkiyənin olduğunu göstərmişdir. Türkiyənin ardınca isə ABŞ gəlir.
Antidarvinist fəaliyyətlərin uğurundan "heç təsirlənmədikləri"ni iddia edərlər
Bütün gücü ilə darvinizm təbliğatı aparan bir mətbuat qrupunun yaşayacağı ən böyük dəhşətlərdən biri, şübhəsiz, antidarvinist çalışmaların uğurudur. Yaradılış həqiqətinin dəlillərini göstərən və təkamülü süquta uğradan kitablar, yazılar, sərgilər və konfranslar dünya səviyyəsində təsirli olmağa başlayınca, bu, darvinistlər üçün ciddi təhdid mənasına gəlir. Olduqca geniş bir qrup təkamül əleyhinə həyata keçirilən bu uğurun böyüklüyündən bəhs edərkən sözü gedən mətbuat qrupu buna səsini çıxarmasa, bunu özləri üçün əskiklik sayarlar. Bu səbəbdən mənimsədikləri üsul adətən bu uğura əhəmiyyət vermir kimi görünüb: "heç təsirlənmədik",- deməkdir.

Əslində, bu, təşvişin göstəricisidir. Dünya miqyasında keçirilən bir konfransda bircə zülalın əmələ gəlməsinin darvinistlər tərəfindən izah edilə bilmədiyindən danışılır, təkamülü təkzib edən fosil sübutlar təqdim edilir, molekulyar biologiyanın təkamülü aradan qaldırdığı isbat edilir. Minlərlə insan bu məlumatları heyranlıq və təəccüb içində dinləməkdə, bu məlumatlar silsiləvi şəkildə yüz minlərlə insana gedib-çatmaqdadır. Bu sübutları görən insanların artıq darvinizmə inanması mümkün deyildir. Bu səbəbdən "heç təsirlənmədik" ifadəsi bu ağır süqutu aradan qaldıra bilmək, gizli saxlaya bilmək üçün bir müdafiə metodundan ibarətdir.
Bu, əslində, tam uşaq reaksiyasıdır. Eynilə atasının cəzalandırdığı balaca bir uşağın: "Heç bir şey olmadı", - deyərək təsirlənmədiyini hiss etdirməyə çalışması kimi, darvinist nəşrlər də eyni uşaq üsulu tətbiq edərlər. Halbuki fəndgirliklərinin əsl üzü ortaya qoyulur, canla-başla, saxtakarlıqlarla müdafiə etdikləri təkamül nəzəriyyəsi hamının gözünün qabağında süquta uğradılır. Bu minvalla da, bu böyük süqutun darvinistlərə təsir etməməsi mümkün deyildir. Təbii ki, şiddətli şəkildə təsirlənər və qorxuya düşərlər.

(ŞƏKİL BAŞLIĞI) İsveçrə, Fransa, Almaniya. Kütlələrin qatıldığı və dünya səviyyəsində 200 dəfədən artıq baş tutmuş təkamül nəzəriyyəsinin süqutu konfransları darvinistlər üçün ürək yanğısıdır. Bu böyük uğur onları dəhşətə salır. "Heç təsirlənmədik" ifadəsi bu böyük məğlubiyyəti sovuşdurmaq, həzm edə bilmək üçündür.
Darvinistlərin qorxusu daha da artacaqdır. Çünki dünya get-gedə artan sürətlə bütün elmi dəlillərin yaradılış həqiqətini göstərdiyini görməyə başlamışdır. Darvinist diktatorluğun mənfur hegemoniyası artıq sona çatmaqdadır. Artıq dövr Uca Rəbbimizin Hadi (Hidayət verən) isminin təcəlli etdiyi iman dövrüdür. Allah inancına qarşı ortaya atılmış olan hər batil din mütləq yox olacaqdır. Uca Allah bir ayəsində belə buyurur:
"De: "Haqq gəldi, batil yox oldu. Çünki batil yoxluğa (heçliyə) məhkumdur!" (İsra surəsi, 81)

(ŞƏKİL BAŞLIĞI) Nə vaxt darvinizmin süqutuna dair effektiv bir fəaliyyət göstərilsə, konfranslar təşkil edilsə, kitablar paylansa, TV proqramları gerçəkləşdirilsə; darvinistlər ya "heç nə olmadı ki" deyib bunu sovuşdurmağa çalışar, ya da həll yolunu yeni bir "itkin halqa" xəbəri uydurmaqda taparlar. Dünya miqyasında baş tutan bu məğlubiyyətin onların üstündə heç bir təsirinin olmadığını sübut etməyə çalışarlar. Halbuki qorxu içində çaxnaşmaya düşmüşdürlər. Dəhşətə gəlmişlər. 150 illik dələduzluqlarının üzə çıxacağını başa düşmüşlər. Artıq tənəzzülə doğru getdiklərinin fərqindədirlər. Hövlnak çıxardıqları saxta "itkin halqa" xəbərləri son çırpınışlarıdır. Fəqət artıq bunların da bir nəticə vermədiyini görürlər.
1- Haberturk, 03.02.2010; 2- HaberTürk, 05.04.2010; 3- Referans, 14.10.2009; 4- Cumhuriyet, 07.11.2009; 5- Milliyet, 10.04.2010; 6- NTVMSNBC, 11.05.2010; 7- Star, 26.03.2010; 8- Sabah, 10.04.2010; 9- Radikal, 09.04.2010.
Saxta illüstrasiyalar və rekonstruksiyalarla sehrli təsir yaratmağa çalışarlar
İllərcə bizlərə qəzet və jurnal səhifələrində təlqin edilən, şagirdlərin məktəb dərsliklərində illərlə gerçək imiş kimi danışılan və insanın saxta tarixinin mühüm bir sübutu kimi təqdim edilmiş olan meymun-adam vardır. Maili yerişi, heyvani görünüşü, yanındakı qəribə görünüşlü arvadı, əlindəki çomağı ilə yaşadığı xəyali sosial həyat içində təsvir edilən bu saxta meymun-adama hələ bir tələffüzü belə olduqca çətin olan latınca ad da verilmişdir: Hesperopithecus haroldcookii.
Hesperopithecus haroldcookii dünyanın ən tanınmış jurnallarında dəfələrlə şəkli çəkilmiş, təsvir edilmiş, rekonstruksiyaları hazırlanmış, dünyanın ən məşhur, hətta Nobel mükafatlı alimləri tərəfindən konfranslarda təqdim edilmiş, üstündə tezislər yazılmış, harada, necə yaşadığı, nə cür bir sosial həyat keçirdiyi, necə gəzdiyi, necə danışdığı mövzusunda elm adamlarının dəfələrlə mübahisə apardığı olduqca tanış addır, əslində. Bu, Nebraska adamıdır.

Burada mühüm bir nüans vardır: darvinist alimlərin illərlə üstündə araşdırma apardığı və tələbələrinə illərlə tədris etdiyi Hesperopithecus haroldcookii üzərindəki bütün bu xəyali ssenari sadəcə tək bir dişə istinad edərək hazırlanmışdır. Ardınca o dişin də insana da, meymuna da aid olmadığı, həqiqətdə, sadəcə bir donuz dişi olduğu üzə çıxmışdır.
Nebraska adamı darvinistlərin əyani təlqinlərlə yol verdikləri saxtakarlığın dərəcəsini anlamaq üçün yaxşı örnəkdir. Fəqət tək örnək deyildir. Darvinistlərin sosial həyat içərisində bütün əzaları ilə çox ətraflı təsvir etdiyi bütün xəyali meymun-adamlar bəzən sadəcə bir çeçələ barmaq fosilindən, bir baldır sümüyündən və ya bir dişdən ibarətdir. Elə vaxt olur ki, fosillərin skeletlərinin bir hissəsi də əldə edilir, lakin bunlar elə rekonstruksiya edilir, bu canlıların elə şəkilləri çəkilir ki, qabağımıza çox təfsilatlı bir meymun-adam çıxır. Halbuki bu bir yalandır.

(ŞƏKİL BAŞLIĞI) Darvinistlərin rekonstruksiya yalanının ən böyük dəlili Nebraska adamıdır. Darvinistlər "bircə donuz dişindən" xəyali Nebraska adamını sosial həyat içində təsvir etməkdən çəkinməmişlər.
Rekonstruksiyalar və təkamülçü illüstrasiyalar insanları yönləndirə bilmək, sanki təkamül varmış təlqinini vermək üçün olduqca geniş istifadə edilirlər. Nebraska adamı nümunəsində gördüyümüz kimi, çəkilən şəkil və ya rekonstruksiya tamamilə onu çəkən insanın xəyal gücünə əsaslanır. Həqiqətdə, belə bir meymun-adam əsla və heç bir zaman yaşamamışdır. Hansı ki, tapılan bütün kəllə qutusu və skeletlərin hamısı da ya insana, ya da əsasən nəsli tükənmiş meymuna aiddir. Fəqət çəkilən şəkillə veriləcək təlqinin bünövrəsi hazırlanmış olur.
Darvinist qəzet, jurnal və TV-lərdə rast gəlinən bütün meymun-adamlar, bütün dino-quşlar, bütün sudan quruya çıxmağa çalışan canlılar xəyalidir. Bunlar bütünlüklə bunları hazırlayan sənətkarların fantaziyalarını əks etdirir. Bunların saxtakarlıq olduğu üzə çıxarıldığı zaman isə, ehmalla geri götürülürlər. Darvinist mətbuat bu saxtakarlığın hüdudlarının üzə çıxmaması üçün olduqca etinalıdır. Lakin əlbəttə ki, artıq saxtakarlıqları gizlətmə siyasətləri nəticə vermir, bütün darvinist yalanlar bir-bir və dərhal üzə çıxarılır.

(ŞƏKİL BAŞLIĞI) Bu qəzet sərlövhələrindəki bütün şəkillər SAXTADIR. Belə bir meymun-adam tarixin heç bir dövründə yaşamamışdır. Darvinistlər şəkil və rekonstruksiyalar işlədərək yalan danışırlar. İnsanları ən çox ovsunlayacaq təlqin üsulundan, yəni əyanilikdən istifadə edirlər. Bu qəzetlərə baxan, mövzu haqqında məlumatsız adam vaxt keçdikcə davamlı görməyə öyrəşdiyi meymun-adamlara bələd olmağa başlayır. Bu ovsun ilə əcdadlarının keçmişdə meymun-adamlar olduğuna "inandırılmış"dır. Bu insan heç əziyyət çəkmədən təkamülə də inanar. Elmi dəlil axtarmağa heç ehtiyac da duymaz. Darvinist təbliğat insanları bax beləcə ovsunlayır, hipnozunu belə yayır.
1- Akşam, 06.04.2001; 2- NTVBilim, 10.2009; 3- Evrensel, 20.09.2001; 4- Sabah, 17.07.2002; 5- Yeni Şafak, 01.10.1998; 6- Hürriyet, 24.09.1998; 7- Milliyet, 23.06.2010; 8- Radikal, 26.03.2010.

(ŞƏKİL BAŞLIĞI) Darvinistlər Sibirdə tapdıqları çeçələ barmaq fosilindən yuxarıdakı şəkilləri hazırlamış və bu barmağın "üçüncü növ" bir insana aid olduğunu iddia etmişdirlər. Darvinistlərin bu saxtakarlığa baş vurmalarının yeganə səbəbi müasir insana aid olan həmin bu barmaq fosilinin öz xəyali təkamül hekayələrinə uymaması və təkamül nəzəriyyəsini yerlə yeksan etməsidir. Dərhal darvinist nəşriyyat tərəfindən lazımi tədbir alınmış, qəribə bir meymun-adam şəkli çəkilmiş və bu tapıntının "təkamülə dair" bir tapıntı olduğu təlqini verilmişdir. Bu mövzuya verdiyimiz əhatəli və elmi cavablar olmasa, bu aldanış bir çox insanı sarıb-ovsunlayacaqdır. Mövzunun elmi gerçəklərini bilməyən bir insan darvinistlərin inhisarındakı nəşrlərdə gördüyü bu meymun-adamı real zənn edəcəkdir.
1- Vatan, 26.03.2010; 2- Toplum ve Tarih, 26.03.2010.
Təkamülü təkzib edən dəlillər tapıldığı zaman bunu ya gizlətməyə çalışar, ya da sıradan çıxararlar

Darvinistlər ötən 150 il boyunca yuxarıda izah etdiyimiz bütün bu sehrli təlqinlərindən istifadə edərək hər cür saxtakarlığı edir, saxta fosillərin təbliğatını istədikləri hər yerdə aparırdılar. Bütün məktəbləri, universitetləri, tanınmış alimləri, jurnalları, qəzetləri, əyani nəşriyyat orqanlarını inhisarlarına aldıqlarına görə, istədikləri yalanı istədikləri kimi danışırdılar. Buna təkamülü təkzib edən dəlilləri aradan qaldırmaq da daxil idi.
Həyatın heyrətamiz kompleksliklə və birdən-birə başladığının ən böyük sübutlarından biri olan Kembri dövrü fosilləri darvinizmin süqutunu elan etdiyinə görə, fosilləri tapan darvinist paleontoloq Çarlz Dulittl Uolkott tərəfindən düz 70 il gizlədildi. Bu, həqiqətən də, darvinist saxtakarlığın anlaşılması baxımından çox böyük hadisədir.
Bundan sonrakı dövrlərdə də buna oxşar hadisələr tez-tez baş verdi, belə ki, hal-hazırda tapılmış vəziyyətdə olan və hamısı təkamülü təkzib edən 600 milyondan artıq fosildən heç kəsin xəbəri yox idi. Təbii ki, darvinistlər Kembri fosillərində keçdikləri praktikanı tapılan bütün fosillərə tətbiq etmişdilər. Çünki tapılan bütün fosillərin mahiyyəti eyni idi: hər biri yaradılış gerçəyini isbat edirdi.
İllərlə "yaşayan fosil" adı altında sadəcə iki, yaxud üç canlı nümunəsini ön plana çıxaran, sanki yaşayan fosil olaraq təkcə bu nümunələr varmış kimi göstərməyə çalışan darvinistlərin bu fırıldaqları da bu vəsilə ilə üzə çıxmış oldu. Aydın oldu ki, bu gün mövcud olan bütün canlıların milyonlarla il öncə yaşamış nümunələrinin fosilləri həqiqətdə vardı. Yəni fosillərin çox böyük hissəsi bugünkü canlıların milyonlarla il öncə də eyni olduqlarını göstərən yaşayan fosillər idi.
İnsanın xəyali təkamülü mövzusu darvinistlər üçün spekulyasiyaya ən əlverişli və ən həssas mövzu olduğuna görə, darvinistlər insanın tarixini göstərən fosillərlə əlaqədar daha geniş miqyaslı saxtakarlıq içindədirlər. Çox vaxt insanın heç təkamül keçirməməsinə dair fosillər gizlədilir, hətta sıradan çıxarılıb məhv edilir. Çünki bunlardan təkcə bir dənəsinin belə gündəmə gəlməsi təkamül yalanının axırına çıxmağa bəs edir. Mövzu ilə bağlı olaraq daima saxta fosillərin gündəmə gətirilməsinin, durmadan spekulyasiya ilə gündəm yaradılmağa çalışılmasının səbəbi məhz budur.

(ŞƏKİL BAŞLIĞI) Çarlz D. Uolkott Kembri fosillərini kəşf edən kimi dərhal ört-basdır etdi və bu fosilləri DÜZ 70 İL GİZLƏTDİ. Gizlədilməsinin yeganə səbəbi Kembri fosillərinin təkamülü yox edən möhtəşəm bir yaradılış dəlili olması idi. Uolkottun bu metodu bu günün təkamülçüləri tərəfindən də hal-hazırda tətbiq edilməkdədir. "Yaradılış atlası" ilə ifşa edilənə qədər 600 milyondan artıq fosil insanlardan gizlədilmişdir. Çünki bu fosillərin hamısı yaradılışı isbat edir. Darvinistlər saxta nəzəriyyələrini elmi dəlil gətirərək yox, elmi dəlilləri GİZLƏDƏRƏK mühafizə etməyə çalışırlar. Sağda şəkildə görünən trilobit gözü yüzlərcə kiçik gözcükdən ibarətdir və bu gözcüklərin hər birinin içində cüt büllur yerləşir. Bu canlılardakı 530 milyon illik fasetli (mürəkkəb) göz sistemi bu günə qədər heç dəyişmədən gəlib çıxmışdır; arı və ya iynəcə kimi bugünkü bəzi həşəratlar da eyni göz quruluşuna sahibdir.
İdeologiyalarından imtina etməmək üçün hətta yadplanetlilərə də bel bağlamışlar
Darvinist bir alimin çıxıb "həyatı yadplanetlilər gətirib" deməyi həddən artıq alçaldıcı və onun adına xələl gətirəcək olduqca gülməli vəziyyətdir. Diqqətlə baxan və darvinizm yalanının əsl üzünün fərqində olan insan bu çıxışların çarəsiz və acınacaqlı vəziyyətdən xəbər verdiyini dərhal anlayar. Çünki darvinistlərin ən böyük problemi həyatın başlanğıcı problemidir. Tək bir zülalın təsadüfən əmələ gəlməyini qətiyyən izah edə bilməyən və bu mövzuda çarəsiz olduqlarını başa düşən darvinistlər həll yolu kimi hal-hazırda yadplanetlilərə sığınırlar.
Bundan əvvəl bəzi darvinistlərlə bağlı diqqət çəkdiyimiz əhəmiyyətli bir nüans vardır: bəzi darvinistlər ayədə bildirildiyi kimi, "möcüzələr belə görsələr" Allahın varlığını inkar içindədirlər. Bu, bəzi inkarçıların Quran ilə bizlərə tərif edilən səciyyəvi cəhətləridir. Bu insanlar həqiqəti və doğrunu çox yaxşı bildikləri halda, Qurana əsasən, yalnız qapıldıqları təkəbbür hissindən dolayı inkar içindədirlər.
Bəzi ateist darvinistlərin öncüllük etdiyi bu yadplanetli yalanı da sözü gedən vəziyyətdən irəli gəlmişdir. Zülalın təsadüfən yarana bilməməsi həqiqəti canlıların yaradıldıqlarını sübut edən mühüm

dəlillərdən sadəcə biridir. Lakin bəzi darvinistlər, onsuz da, Allahın varlığı gerçəyini inkar məqsədi güddükləri üçün (Allahı tənzih edirik) zülallarla bağlı bu əhəmiyyətli gerçəyi görməzdən gəlirlər. Və tək bir zülalı da qeyri-adi komplekslikdə yaratmağa qadir olan Allahın varlığını qəbul etmək əvəzinə, "həyatı yadplanetlilər gətirdi" deyə inanılmaz dərəcədə məntiqsiz bir iddianın müdafiəçisinə çevrilmişdirlər. Bu, heyrətamiz bir cəsarət və əslində, hədsiz acizlikdir. Bu ağlasığmaz iddiada olan darvinistlər sapqın dinləri naminə, sözün əsl mənasında, alçalmaqdadırlar. Darvinistlər belə edərkən bu sualın cavabını verə bilməyəcəklərini dərk etmirlər: iddia etdikləri bu xəyali və kompleks molekul necə əmələ gəlib? Haradasa-kosmosda belə olsa, təsadüfən yaranmadığına görə, onu var edən, insandan çox daha üstün ağlın varlığı gərəkdir. Bu, saxta darvinist iddianın süqutu mənasına gəlir. Darvinistlərin digər iddiaları olan üzvi molekulların kosmosdan gəlib, Millerin təcrübəsindəki kimi "cold trap", yəni soyuq tələyə düşərək canlı hüceyrə meydana gəlməsi hekayəsi də eyni məntiqsizlikdə bir hekayədir.
Bir hüceyrəni təşkil edən bütün üzvi molekullar, hətta təkbaşına yaranması qeyri-mümkün olan zülallar belə bir yerdə olsa və şərait darvinistlərin iddia etdikləri kimi olsa belə, bir hüceyrənin təsadüfən əmələ gələ bilməsi qeyri-mümkündür. Darvinistlər laboratoriyada istədikləri şəraitdə, şüurlu şəkildə və nəzarət altında hüceyrənin ən kiçik hissələrini belə əmələ gətirə bilmirlər. Bircə dənə zülala belə izahat gətirə bilmirlər. Darvinistlər insanları barmaqlarına dolayırlar. Yadplanetli oyunları ilə, əslində, insanlara qarşı baxış bucaqlarını göstərirlər. 150 ilin saxtakarlığı olan təkamül əllərindən çıxacaq deyə, bu cür səfehlikləri hələ də insanlara yeridə biləcəklərini hesab edirlər. Darvinistlər istədikləri qədər çapalasınlar, Uca Allahı inkar məqsədi ilə (Allahı tənzih edirik) gətirdikləri hər cür iddia, ancaq özlərini gözdən salacaqdır. Çünki bu, aləmlərin Rəbbi olan Uca Allahın vədidir. Bir ayədə Rəbbimiz inkar edənlərin rüsvay ediləcəyini belə bildirir:
"… Bilin ki, siz Allahı aciz qoya bilməzsiniz. Allah inkar edənləri (dünyada və axirətdə) rüsvay edəcəkdir!" (Tövbə surəsi, 2)

(ŞƏKİL BAŞLIĞI) Zülalların təsadüfən yarana bilməyəcəyini artıq inkar edə bilməyən, lakin Uca Allahın üstün Qüdrətini qəbul etmək əvəzinə, materialist məntiqin gətirdiyi saxtakar ruhu buraxmaq istəməyən bir qisim darvinistlər yadplanetlilərə sığınmaqdan narahatçılıq duymurlar. Guya, kosmos iddiası zülalın ilkin olaraq necə əmələ gəldiyi kimi ən fundamental suala həll yolu olacaqmış kimi saxtakarlıq edir və insanları aldatmağa çalışırlar. Ancaq həqiqətdə, darvinistlərin kosmos iddiası çox dərin və ciddi əlacsızlığın göstəricisidir. Məğlubiyyətin və çarəsizliyin təzahürüdür. Darvinistləri gözdən salan başlıca iddialardan biridir. Həyat nə kosmosdan gəlib, nə də təsadüfən dünya üzərində başlayıb. Həyat Rəbbimizin "Ol" əmri ilə gerçəkləşib və fövqəladə gözəllik, müxtəliflik və komplekskliklə bütün dünyada var olmuşdur. Molekulyar biologiyanın, genetikanın və 600 milyon fosillə elmin də bizə göstərdiyi tək nəticə budur.
1- Güneş, 15.01.2000; 2- Radikal, 20.10.2005; 3- Sabah, 03.02.2003; 4- Radikal, 11.12.2008; 5- Vatan, 14.11.2005; 6- Hürriyet, 20.11.2005; 7- Bugün, 08.12.2008; 8- Bugün, 11.12.2008; 9- Radikal, 10.08.2005; 10-Sabah, 06.04.2005; 11- Vatan, 14.11.2005; 12- Vatan, 05.12.2006; 13- Sabah, 08.12.2008.
Təkamülün yanlışlığını göstərən fəaliyyətləri elmi dəlillərlə deyil, etiraz aksiyalarıyla, hay-küylə susdurmağa çalışırlar
Darvinistlər elmdən qorxurlar. Elmin göstərdiyi gerçəklərin üzə çıxmasından, eşidilməsindən, dünyaya yayılmasından dəhşətə gəlirlər. Bunun səbəbi elmə aid hər şeyin təkamül nəzəriyyəsini yerin dibinə keçirmiş və qüvvədən salmış olmasıdır.
Elə bu səbəbdən darvinistlər heç vaxt heç kimə ELM İLƏ CAVAB VERƏ BİLMİRLƏR.
- Elmi dəlilə verdikləri cavab ancaq təcavüzkarlıqdır.
- Elmi sübutların göstərildiyi təkamül əleyhinə konfranslara dəlillərlə yox, ancaq plakatlar və aksiyalarla müqavimət göstərərlər.
- Elmi sübutların -həqiqi fosillərin- nümayiş etdirildiyi sərgiləri bağlatdırmağa qalxarlar.

- Elmi dəlil təqdim edən kitabları yandırmağa qalxarlar.
- Elmi dəlilləri məktəblərdə oxutdurmağa çalışanları məhkəməyə verərlər.
- Yaradılış müdafiəçilərinin faktlar gətirərək qarşılıqlı müzakirə dəvətlərindən dəhşət və qorxu içində boyun qaçırır, əsla özləri belə bir tələb dilə gətirməzlər.
- Darvinistlər elmi dəlilə elmlə qarşılıq vermək əvəzinə, zorakılıqla, təcavüzkarlıqla, zor gücü ilə və çığırtı-bağırtı ilə cavab verirlər. Çünki əllərində elmi dəlil yoxdur və pozisiyalarını qoruyub-saxlamaq üçün bildikləri tək yol da budur.

(ŞƏKİL BAŞLIĞI) Darvinistlər üçün elmi antitəkamülçü fəaliyyətə qarşılıq verə bilməyin tək yolu xuliqanlıq, təcavüzkarlıq, aksiya və çığırtı-bağırtıdır. Elmə əsla elmi dəlillərlə cavab verə bilmirlər.
Əllərinə keçən hər fürsətdə demokratiya, haqq, azadlıq, fikir azadlığı kimi anlayışların ardına sığınan darvinistlər iddialarının özünü doğrultmadığı sübut edildiyi zaman birdən-birə fanatik və təcavüzkar vəziyyət alırlar. Davamlı ardına sığındıqları düşüncə azadlığı, söz haqqı, demokratiya kimi anlayışların üstündən bir anda xətt çəkirlər. Yaradılış həqiqətini sübut edən dəlillər ortaya qoyulduğu zaman dərhal dözümsüzləşir, hətta təcavüzkarlaşırlar. Əslində, iddialarında ən sabit fikirli, ən fanatik, ən radikal və ən aludə olanlar darvinistlərin özləridir. Çünki darvinizm elmin gətirdiyi nəticə deyil, əksinə, elmin təkzib etdiyi saxta və sapqın bir inancdır. Sadəcə ideologiyaya və batil inanc sisteminə əsaslandığı üçün ancaq xuliqan üsulları ilə ayaq üstə saxlanmağa çalışılır. Darvinizm uzun illərdir bu zorakı siyasət ilə insanlara hədə-qorxu gəlir. Bu gün darvinizm dünya səviyyəsində dövlət qurumlarına hakimdirsə, bunun yeganə səbəbi sözü gedən zorakı və təcavüzkar hədə-qorxu siyasətidir.
Əgər bir darvinist elmi konfransa əlində sübutla yox, plakatlarla gəlir, hay-küylə elmi çıxışları susdurmağa çalışır, təkamül əleyhdarlarına hücum çəkib onlara qara-qorxu gələcəyini zənn edir, elmi konfransdan polis nəzarətində xaric edilirsə, bunlar darvinizmin əsl üzünün görülməsi üçün kifayətdir. Darvinizmin məhvi xəbəri darvinistlər arasında çox böyük çaxnaşma salmışdır. Artıq heç bir zorakı hərəkət darvinistlərin saxta dinini ayaq üstə saxlaya bilməyəcəkdir. Bu, Allahın adətullahıdır. Hər şeydən xəbərdar olan Rəbbimiz Allah bir ayəsində iman edənlərin hər zaman üstün gələcəyini belə bildirir:
"Xeyr, Biz batili haqla rədd edərik (haqqı batilin təpəsinə atarıq) və o da onu yox edər. Bir də baxıb görərsiniz ki, o yox olub getmişdir. (Allaha) isnad etdiyiniz (naqis) sifətlərə görə vay halınıza". (Ənbiya surəsi, 18)

İqtibaslar:
1. James Owen, Evolution Less Accepted in U.S. Than Other Western Countries, Study Finds, 10 avqust 2006 - http://news.nationalgeographic.com/news/2006/08/060810-evolution.html.
Darvinist təbliğat üsulları (3/3)

Psixoloji çətinlik və sıxıntı içində olmaqları hərəkətlərindən və verdikləri reaksiyalardan bəlli olur
Darvinistlərin, əslində, psixoloji sıxıntı içində olduqlarını göstərən mühüm bir əlamət də vardır: bədən dilləri. Xüsusilə, yaradılış dəlillərini gördüklərin zaman gərgin əhvallarından, göstərdikləri reaksiyalardan, nəzarətsiz hərəkətlərindən, sıxıntılı vəziyyətlərindən bu mövzuda məğlubiyyətə uğradıqları başa düşülür. Bax bu, darvinizmin yalan olduğunun önəmli dəlillərindən bir digəridir. Onsuz da, darvinistlər, adətən, bu məğlubiyyəti və acınacaqlı halı bilərək yaradılış müdafiəçilərinin qarşısına çıxırlar. Bu səbəblə, haqqı və doğrunu müdafiə etməyin gətirdiyi rahatlıq və dinclik əvəzinə, üstlərində bir yalanı müdafiə etməyin yükü və sıxıntısı vardır. Öz ideologiyalarının tələb etdiyi kimi heç bir dəlili olmayan nəzəriyyəni sanki doğru imiş və elmi dəlilləri varmış kimi müdafiə etmək məcburiyyətindədirlər. Təkamül nəzəriyyəsinin yanlışlığına aid göstərilən həyati elmi sübutlara nəsə cavab vermək məcburiyyətindədirlər. İnsanların həqiqi elmi dəlillərə inanacaqlarını və bundan qane olacaqlarını bilə-bilə sanki doğru bir şeyi müdafiə edirmiş təəssüratı yaratmağa

çalışacaqlar. Bir yalanı müdafiə etmək məcburiyyətində olmaq, xüsusilə də, gerçəklərin fərqində olan bir insan üçün böyük sıxıntıdır.

(ŞƏKİL BAŞLIĞI) Təbiətdəki estetika, ahəng və simmetriya darvinistlər üçün ən böyük narahatlıq səbəblərindən biridir. Darvin belə bu narahatlığını gizlədə bilməmiş, tovuz quşunun lələklərinin onu "dilxor" etdiyini etiraf etmək məcburiyyətində qalmışdır.
Qarşılıqlı debat proqramları məhz bu səbəbdən hər darvinistin əsəbiləşdiyi, hirsləndiyi, sıxıldığı, qəribə əl-qol hərəkətləri ilə müqavimət göstərmək istədiyi, qəzəbdən boğulduğu, hücuma keçdiyi, təngə gəldiyi mühitdir. Daima izah etməyə çalışdıqları bir şey olduğunu söyləyir, lakin heç cür açıqlama verə bilmirlər. Açıqlama verə bilmələri mümkün deyildir, çünki təkamülü dəstəkləyən tək bir elmi dəlil yoxdur.
Bu, haqq olanı müdafiə etməməyin gətirdiyi narahatlıq və təlaşdır. Darvinistlər təkcə bu vəziyyətlərdə deyil, həyatlarının hər mərhələsində bu sıxıntılı əhval-ruhiyyəni mütləq yaşayırlar. Çünki bir yalanı müdafiə edir, dürüst davranmırlar. Uca Allah heç bir elmə əsaslanmadan Rəbbimizə qarşı mübarizə halında olanların "güzəranının daraldığı"nı ayəsində bildirmişdir:
"Hər kəs Mənim öyüd-nəsihətimdən üz döndərsə, güzəranı daralar..." (Taha surəsi, 124)
Təkamülü təkzib edən bütün iddiaların elmdən kənar olduğunu irəli sürərlər
Bundan əvvəlki sətirlərdə darvinistlərin elmi terminlər və formullardan istifadə edərək özlərinə elmilik görkəmi verdiklərindən və bu yolla psixoloji təlqin verərək geniş kütləlri aldatdıqlarından bəhs etmişdik. Darvinistlərin bu istiqamətdə işlətdikləri ikinci saxtakar taktika isə, darvinizmi müdafiə etməyənlərin elmi olmadıqlarını deyən aldadıcı özünümüdafiə mexanizmidir.
Darvinist şəxs sırf məğlub olacağını bildiyi üçün yaradılışı müdafiə edən insanın qarşısına çıxmaz və bəhanə olaraq da "elmi debat mühitinin olmayacağı"nı iddia edər. Halbuki bu, acizlik və qaçışdır. Bu debatı aparmağı, təbii ki, istəməz, çünki məğlub olacağını və onu uca tutan saxta bir yığının qarşısında pərt olacağını bilir. Bunun əvəzinə elmilik fəndinin arxasına sığınaraq bu müzakirədən qaçmağın yollarını axtarır.
Halbuki elmi dəlil gətirən tərəf ancaq yaradılış tərəfdarlarıdır. Heç bir darvinist indiyə qədər bircə dənə də elmi dəlil gətirə bilməmişdir. Onsuz da, gətirməsi mümkün deyildir. Lakin debat əsnasında görəcəyi təkamülü təkzib edən elmi dəlillər onu çətinliyə salacaqdır. Həqiqi fosilləri görəcək, təkamül saxtakarlıqları bir-bir ortaya qoyulacaq, təkamülçülərin necə tək bir zülalın təsadüfən əmələ gəlməsini izah edə bilmədikləri elmi dəlillərlə üzə çıxarılacaqdır. Bu məğlubiyyət darvinistlərə çox ağır gəlir. Elə bu səbəbdən də çox tanış bir psixoloji müdafiə üsulunun dalında gizlənir və qarşı tərəfi elmi olmamaqla təqsirləndirirlər.

(ŞƏKİL BAŞLIĞI) Cənab Adnan Oktarın ateist və darvinist Riçard Dokinz ilə qarşılıqlı görüş tələbi dəfələrlə təkrarlanmış, bunun üçün ingilis qəzeti "The Times"a elan belə verilmişdir. Dokinzin debatdan qaçma səbəbi də, şübhəsiz, başda "Yaradılış atlası" olmaq üzrə Cənab Adnan Oktarın əsərlərində şahid olduğu elmi faktların onun iddialarını tamamilə yerlə bir edəcəyini çox yaxşı bilməsidir.
Bu həqiqəti daima yadda saxlamaq lazımdır: darvinistlərin əlində bircə dənə də elmi dəlil yoxdur. Onların əlində ancaq demaqoqluq, yalan, ittiham, təcavüzkarlıq, psixoloji təlqin, saxta fosil və bolluca uydurma "elmi" terminlər vardır. "Elmilik" adında ortaya atılmaları əsrin ən şok edici hadisələrindən biridir. Bu, dünya səviyyəsindəki darvinist yalanın hüdudlarını göstərməkdədir. Elmin davamlı rədd etdiyi, uşaqların belə inanmadığı bir yalan elmi özünə qoruyucu qiyafə etmişdir. Ona görə də təkamülü elm naminə müdafiə etdiyini və yaradılış tərəfdarları ilə elmi olmadıqları üçün görüşmədiyini iddia edən bir darvinist incələndiyi zaman mütləq bu insanın böyük bir yanlışlıq içində olduğunu daim xatırlamaq lazımdır. Elm, əslində, bütün darvinistlərin ən böyük yağısına çevrilmişdir. Çünki onlar elmin ardınca qaçdıqca, elmi həqiqətlər davamlı surətdə təkamülü məhv etməkdədir.

Elm antidarvinist, antiateistdir

ELM DARVİNİZMİN DÜŞMƏNİDİR. ELM ATEİZMİN QARŞISINDADIR. ELM ANTİKOMMUNİSTDİR, ANTİMARKSİSTDİR. ELM- MARKSİST, ATEİST VƏ DARVİNİST DÜŞÜNCƏNİ PARAM-PARÇA EDƏN BİR SİSTEMDİR. Elm ilə darvinist oyun sona çatmışdır. Elm ilə darvinist təbliğat ən böyük zərbəsini almışdır. Elm kütlələrə illərdir təlqin edilən təkamül saxtakarlığını tar-mar etmişdir. Elm ateist fəlsəfənin bünövrələrini yıxmışdır. Elm hara getsə, harada gündəmə gəlsə, harada özünü büruzə versə, darvinizmi parçalayır, məhv edir. Beləliklə də, ELM ANTİPAQANDIR. Elm- bütpərəst düşüncələri, batil dinləri, saxta ideologiyaları aradan qaldırır. Məhz bu səbəbdən də ELM DARVİNİSTLƏRİN ƏN BÖYÜK ƏZABLARINDAN BİRİDİR.

Darvinizmi elm kimi göstərmək bütün dünya üçün qurulmuş çirkin oyunun bir hissəsidir. Allah inancını yer üzündən qaldırmaq üçün (Allahı tənzih edirik) yeni bir dinə ehtiyac duyan dəccali sistem, illər öncə ən effektiv hipnoz üsulunu müəyyənləşdirmiş və dərhal elmə sarılmışdır. Elmdən istifadə edərək insanları aldada biləcəyini, bütün dünya ilə əlaqəyə keçə biləcəyini və ən həlledici yerləri əlinə keçirə biləcəyini, elm adı altında bütün saxtakarlıqları rahatca həyata keçirə biləcəyini görmüşdür. Dəccal sisteminin dünya miqyasında keçirdiyi kütlə hipnozu elm adı altında yayılıb-təbliğ edilmişdir.

Özlərinə dost bildikləri elm darvinistləri yıxıb-darmadağın etmişdir.

Darvinistlər elmilik saxtakarlığını qorxub-çəkinmədən həyata keçirərkən, elmin onlara bu qədər böyük iztirablar verəcəyini heç güman etməmişdilər. Elmin ancaq dinə xidmət etdiyini görəndə şoka düşdülər. Tarixin ən böyük alimlərinin Allaha iman etdikləri bütün dünyaya elan ediləndə dəhşətə düşdülər. Elmilik cəfəngiyatına təkrar sarılmağa çalışdılar, lakin tutub-qala bilmədilər. Biçarə, səslərini xeyli azaltdılar. Elmin ateizmi, darvinizmi, marksizmi, kommunizmi, materializmi və bütün digər batil ideologiyaları boğub yerlə bir etdiyini öz gözləri ilə gördülər. Darvinistlər elm qarşısında ən böyük məğlubiyyətlərini daddılar. Özlərinə dost bildikləri elm onları yıxıb-darmadağın etdi.

Elmin tərəqqisi ilə 21-ci əsrdə ortaya çıxan ən böyük həqiqətlərdən biri budur: elm Allaha iman edənlər üçündür. Elm səmimi dindarlara fayda gətirir. Allah Quranda ağcaqanada (Bəqərə surəsi, 26), bal arısına (Nəhl surəsi, 68) diqqət çəkir. Bir trayektoriya üzrə hərəkət edən ulduzlara (Zəriyət surəsi, 7), suyun üzündə üzən gəmilərə (Həcc surəsi, 65) diqqət çəkir. Allah Quranda göyərən yarpaqlara (Ənam surəsi, 59), yeddi qat göy üzünə (İsra surəsi, 44) diqqət çəkir. Allah Quranda iman edənlərin bu iman dəlillərinə qarşı diqqətli olmaqlarını istəyir. İnsan elm ilə araşdırdıqca bu diqqətəlayiq sistemlərin dərinliklərini kəşf edər.

Şübhəsiz ki, toxumu da, çərdəyi də Allah çatladır. O, ölüdən diri çıxarır, diridən isə ölü çıxarır. Budur Allah! Siz necə də döndərilirsiniz! (Ənam surəsi, 95)

Hindqozunun toxumları su ilə daşınır. Toxum daşımanın təhlükəsiz olması üçün sərt bir qabığın içinə yerləşdirilmişdir. Bu sərt qabığın içində uzun səyahət üçün lazım olan hər şey hazırdır. Hindqozu toxumlarının ən diqqətçəkən xüsusiyyətlərindən biri isə suda üzə bilmələrini və batmamalarını təmin edən hava boşluqlarına sahib olmasıdır.
www.islamadavet.org

Dərilərindəki rəng maddələri sayəsində buqələmunlar olduqları mühitlə uyğunluq təşkil edərək düşmənlərindən qorunurlar. Allah buqələmunlarda simpatik sinir sisteminin ifrazı ilə piqmentlərin dağılmasını və toplanmasını təmin edən nizam yaratmışdır. Çox ağır hərəkət etməsinə baxmayaraq, buqələmun bu sayədə təhlükəsiz şəkildə həyatını davam etdirə bilir.
www.darwinizmdini.com

Bir insan suda balığın gördüyü kimi görə bilməz, çünki insan gözü su altında dəqiq görməni təmin edəcək xüsusiyyətlərə sahib deyil. Məsələn, balıqlardakı kimi linza sistemi yoxdur və ya insan gözü balığın gözü kimi yumru və sərt deyil. Buna görə də suda balıqlar kimi dəqiq görmək qabiliyyəti təmin edə bilməz. Allah hər canlını olduğu mühitə ən uyğun şəkildə yaratmışdır.
www.dinsizliginkabusu.com

Fosil qeydləri bitkilərin təkamül keçirmədiyini, hər hansı bir xəyali əcdada sahib olmadıqlarını göstərir. Balıqların həmişə balıq, quşların həmişə quş, hörümçəklərin həmişə hörümçək, şam ağaclarının həmişə şam olduqları kimi, palıd ağacı da həmişə palıd olaraq var olmuşdur. Rəsmdə görülən 45 milyon illik palıd yarpağı fosili də bu həqiqəti təsdiq edir.
www.Allahkorkusu.com

Dövr: Kaynozoy dövrü, Eosen mərhələsi
Yaş: 45 milyon il
Bölgə: White River, Wyoming, ABŞ

Dəniz şabalıdları dünyanın bütün dənizlərdə rast gəlinən, Exinoid sinfinə daxil olan tikanlı dəniz canlılarındandır. Təxminən 300 milyon illik dəniz şabalıdı fosilləri bu canlıların kompleks quruluşları ilə yüz milyonlarla ildir var olduqlarını göstərir. Bu zaman zərfində quruluşlarında bir dəyişiklik olmamış, hər hansı bir ara mərhələdən keçməmişlər.
www.genclerdarwinistleresorun.com <http://www.genclerdarwinistleresorun.com>

Dövr: Karbonifer dövrü
Yaş: 306-299 milyon il
Bölgə: ABŞ

Bivalve ikitaylı molyusklardan olan midiya və istridyə kimi canlıdır. Bu dövrdə yaşayan formaları ilə milyonlarla il əvvəl yaşayan formaları arasında heç bir fərq yoxdur. Bu vəziyyət təkamülçülərin irəli sürdüyü mərhələli təkamül iddiasını heç bir mübahisəyə yer vermədən əsassız edir.
www.yasayanfosiller.com

Dövr: Kaynozoy dövrü, Miosen mərhələsi
Yaş: 13 – 12,5 milyon il
Bölgə: Calvert, Maryland, ABŞ
37 – 23 milyon yaşında dovşanla günümüzdə yaşayan dovşanlar arasında heç bir fərq yoxdur. Milyonlarla ildir dəyişməyən dovşanlar təkamül keçirmədiklərini, özlərini uca Allahın yaratdığını söyləyirlər.
www.cehennemazabi.com
Dövr: Kaynozoy dövrü, Oliqosen mərhələsi
Yaş: 387 – 23 milyon il
Bölgə: White River, Wyoming, ABŞ
Yüz milyonlarla illik fosillər canlıların heç bir dəyişiklik keçirmədiyini sübut etmişdir. Rəsmdəki 95 milyon illik tülkü kəllə skeleti fosili kimi bütün fosillər darvinizmin axmaqlığını nümayiş etdirir.
www.altincag.com

Fosil qeydlərində bütün canlılar həmişə ən mükəmməl halları ilə və tam olaraq vardır. Kəllə skeletləri, onurğa, əl və ayaq quruluşlarında heç bir yarım və nöqsan qalmış xüsusiyyət yoxdur. Fosillər pandaların həmişə panda olaraq var olduğunu və hər hansı bir təkamül keçirmədiyini sübut etmişdir.
www.ahirzaman.net
Rəsmdə ənbər içində fosilləşmiş arı fosili görürük. Bu canlıların günümüzdəki nümunələri milyonlarla il əvvəl yaşayan nümunələrindən fərqsizdir. İki rəsm müqayisə edildikdə, aradakı mükəmməl bənzərlik dərhal aydın olur.
www.belgeseller.net

Dövr: Kaynozoy dövrü, Miosen mərhələsi
Yaş: 25 milyon il
Bölgə: Dominikan Respublikası
Soldakı rəsmdə ənbər içində fosilləşmiş 25 milyon illik iynəsiz arı, aşağıda isə iynəsiz arının günümüzdəki nümunələrindən birini görürük.
Tettigoniidae sinfinə daxil olan çöl çəyirtkələrinin çoxu tropik bölgələrdə yaşayırlar. Çöl çəyirtkələri milyonlarla ildir dəyişmədən eynilə qalıblar. Rəsmdə fosili görünən 128 milyon yaşındakı çöl çəyirtkəsi də bu həqiqətin dəlilidir.
www.Allahinisimleri.net

Rəsmdə görünən 54 – 37 milyon illik sümüklü durna balığı ilə bu gün dənizlərdə yaşayan həmin canlılar arasında heç bir fərq yoxdur. Bu fərqsizlik darvinistlərin açıqlaya bilmədiyi vəziyyətdir və yaradılış həqiqətini bir daha sübut edir.

www.yaratilismuzesi.com
Dövr: Eosen dövrü
Yaş: 54 - 37 milyon il
Bölgə: Green River, Lincoln Country, Wyoming, ABŞ
Üstdə, solda 108 – 92 milyon illik bir sümüklü durna balığı fosili və üstdə, sağda fosildən bir detal, altda canlının günümüzdə yaşayan nümunəsi görünür.

Günümüzdəki istridyələrlə eyni olan 23 – 5 milyon yaşındakı istridyələr təkamül nəzəriyyəsinin iddialarının əsassız olduğunu göstərir. Milyonlarla ildir eyni olan istridyələr təkamül keçirməyiblər, onları Allah yaradıb.

www.dunyasavaslari.com

Dövr: Kaynozoy dövrü, Miosen mərhələsi
Yaş: 23 – 5 milyon il
Bölgə: Cajamarca, Peru
Rəsmdə görünən 165 milyon yaşında olan qoza dilimi daşlaşmış bir meşədən əldə edilmişdir. Qozanın bütün detallarının göründüyü bu fosil nümunəsi bitkilərin təkamül keçirmədiyini göstərən dəlillərdən biridir. Günümüzdəki qozaların sahib olduğu bütün xüsusiyyətlərə eyni formada bundan 165 milyon il əvvəl yaşamış qozalar da sahibdir.
www.kuranahlaki.com

Dövr: Mezozoy dövrü, Yura mərhələsi
Yaş: 165 milyon il
Bölgə: Jaramillo, Santa Cruz, Argentina
Sağdakı rəsm, 165 milyon illik bir qoza fosilinə aiddir. Altda isə bu dövrə aid qoza dilimləri və bir qoza görünür.
Fosil qeydlərində bir çox nümunəsi olan canlılardan biri də xərçənglərdir. Milyonlarla il əvvəl yaşamış xərçənglərlə günümüzdəkilər arasında heç bir fərqin olmadığı fosil tapıntılarının göstərdiyi danılmaz həqiqətdir. Bu həqiqətin sübutlarından biri də rəsmdə görünən 23 – 5 milyon yaşında olan xərçəngdir. Bu xərçəng bu gün yaşayanlarla tamamilə eynidir.
www.sevimlicanlilar.com

Dövr: Kaynozoy dövr, Miosen mərhələsi
Yaş: 23 – 5 milyon il
Bölgə: Rio de la Plata, Argentina

YARADILIŞ HƏQİQƏTİ

Heç vaxt pozulmadan və ya aşınmadan qanadlarını saniyədə 15-80 dəfə çırpa bilən bir quşun sahib olduğu bu fövqəladə sistemin kor təsadüflərin əsəri olduğunu düşünənlər çox yanılırlar. Bir insan qolunu saniyədə bir-iki dəfədən çox qaldırıb endirə bilmədiyi halda, 10-12 sm böyüklüyündə, ən çox bir neçə qram ağırlığında olan bir canlının belə mükəmməl hərəkət qabiliyyətinin olması, heç şübhəsiz, uca olan Allahın əsəridir.

www.ALLAHvar.com

Uçma qabiliyyətini, görmə itiliyini, çox yüksək sürətdə uçarkən heç zərər görmədən enmə və dayanma qabiliyyətini qartallara qazandıran nədir? Uçma anlayışını bilməyən hüceyrələr bir yerə gəlib qanad meydana gətirməyi necə qərar vermişlər? Öz varlıqlarının da şüurunda olmayan hüceyrələrin belə bir üstün ağıl və plan tələb edən işi öz başlarına etmədikləri açıq şəkildə görünür. Canlıları yoxdan var edən, onlara möcüzəvi qabiliyyətlər bəxş edən Rəbbimiz olan Allahdır.
www.darwinvekuslar.com

Dirildən də, Öldürən də Odur. O, bir şeyin olmasını istədikdə ona ancaq: “Ol”, – deyir, o da olur. (Ğafir surəsi, 68)
www.imanhakikatleri.com

İnsanın tək bir DNT molekulunda bir milyon ensiklopediya səhifəsini, yəni təxminən 1000 kitabı dolduracaq miqdarda məlumat var. Bunun mənası odur ki, hər insanın gözlə görünməyən hüceyrəsində, ondan çox kiçik olan nüvədəki bir molekulda təxminən 1000 cildlik dünyada bənzəri olmayan nəhəng ensiklopediya vardır.

Bədəninizdəki 100 trilyon hüceyrədən hər biri bir milyon səhifəni əzbərdən bilərkən, görəsən, siz ağıllı və şüurlu bir insan olaraq həyatınız boyunca neçə ensiklopediya səhifəsi əzbərləyə bilərsiniz? Necə ki, hər əsərin və ya hər məlumatın bir yazıçısı və sahibi varsa, DNT-dəki məlumatın da bir sahibi və yaradıcısı var. O yaradıcı üstün və güclü, sonsuz elm və ağıl sahibi olan, aləmlərin Rəbbi Allahdır.

Bu səhifədəki rəngləri qəbul etməyiniz və bu rənglərin sizdə duyğu və düşüncələr meydana gətirməsi, bir-biri ilə asılı bir çox fərqli mexanizmin eyni anda uyğunluq içində işləməsi ilə mümkündür. Bu quşun başındakı parlaq mavi rəngi, boyundakı qaralığı, qanadlarındakı rəng ahəngini görməyiniz, yüzlərlə kompleks əməliyyatın eyni anda reallaşmasının nəticəsidir. Bu mexanizmlərin uyğunlaşması və qüsursuz quruluşu Allahın bir lütfüdür.
www.cehennemcennet.com

Arı səhləb çiçəyi çoxalmaq üçün dişi arıların görünüşünü təqlid edir. Erkək arı çiçəyi mayalamağa çalışarkən üzərinə tökülən tozcuqları bir başqa çiçəyə daşıyaraq çiçəklərin çoxalmasını təmin edir. Beyni, gözü və ağlı olmayan bir bitkinin dişi arıların necə göründüyünü bilməsi, bu görünüşü təqlid etməsi, əlbəttə ki, özünün qazandığı xüsusiyyət deyil. Arı səhləb çiçəklərini sahib olduqları xüsusiyyətlərlə nöqsansız yaradan Allahdır.
www.kurandacanlilar.com

Darvinistlər yer üzündəki bütün canlıların xüsusiyyətlərini, "ana təbiət" adını verdikləri xəyali güc tərəfindən əldə etdiklərini iddia edərkən, əslində, ilahlaşdırdıqları "ana təbiət"in daş, torpaq, çəmənlik, ağac, çiçəklərdən meydana gəldiyini və ağıl və şüurdan məhrum olduğunu düşünmürlər. Şüursuzluğun şüur tələb edən mexanizmlər çıxara bilməyəcəyini ağıllarına belə gətirmirlər. Aydındır ki, canlı və cansız bütün varlıqlar, sahib olduqları qüsursuz nizamlarla, üstün bir ağılın və sənətin, yəni uca olan Allahın əsəridir.
www.bitkidunyasi.net

Bütün meyvə və tərəvəzlər, qupquru qara torpaqdan hansı mineralları almağın gərəkdiyini bilir. Ehtiyacları olandan nə çox, nə də az mineral alırlar. Önünüzə bir miqdar torpaq içində mis, dəmir, sink və bənzər minerallar qoyulsa, bunları necə ayırd edəcəyinizi, hansından nə qədər almağın lazım

olduğunu heç bir texniki kömək almadan bilərdinizmi? Əlbəttə ki, xeyr. Yeməkləri ən faydalı mineral və vitaminlərlə təchiz edən, ən gözəl şəkildə qablaşdırılmış olaraq insanlara lütf edən uca olan Allahdır.
www.Allahinsonsuzgucu.com

At nalı xərçəngləri Chelicerata alt sinfinə aid olub, hörümçək və əqrəb sinfinə daha yaxındırlar. Şəkildə görünən 150 milyon il yaşındakı at nalı xərçəngi qalığı yaradılışın açıq gerçək olduğunu, təkamülün isə heç bir zaman yaşanmadığını bir daha təsdiq edir.
www.darwinizminsonu.com

İndiki dövrdə yaşayan at nalı xərçəngi və altda da 150 milyon illik Almaniyada tapılmış at nalı xərçəng qalığı.

Mürəkkəb balıqlarının tarix boyunca həmişə mürəkkəb balığı olaraq var olduqlarının isbatı olan şəkildəki 95 milyon illik qalıq təkamülçülərin iddialarına meydan oxuyur. Mürəkkəb balıqlarının təkamül keçirdiyinə dair ən kiçik bir dəlil belə tapa bilməyən təkamülçülər qalıq qeydləri qarşısında böyük pərişanlıq içindədirlər.
www.gercegibilmek.com

Ən üstdə Livanda tapılmış 95 milyon illik mürəkkəb balığı qalığı görünür. Altda da indiki dövrdə yaşayan mürəkkəb balığı.

54-37 milyon illik bu sumax bitkisi ilə günümüzdəki sumax bitkiləri arasında heç bir fərq yoxdur. Milyonlarla il boyunca sumaxlar təkamül keçirməmişdir.
www.hayatinkokeni.com

54 - 37 milyon illik sumax yarpağı qalığı

Bu günki sumax bitkisinin yarpaqları

Ən altdakı şəkildə kəhrəba içində qalıqlaşmış iki iynəsiz arı qalığı görünür. Aşağıda da dövrümüzdə yaşayan iynəsiz bir arı var. Bu canlıların bu günkü nümunələri ilə milyonlarla il əvvəl yaşayan nümunələri bir-birindən fərqsizdir.
www.evrimacmazi.com

Dövr: Kaynozoy erası, Oliqosen dövrü
Yaş: 25 milyon il
Bölgə: Dominikan Respublikası

25 milyon illik iynəsiz arı

Quru bitkiləri qalıq qeydlərində lazımı qədər qalıqlara malikdir, amma bu qalıqların heç biri bir növdən digərinə ara keçid forması xüsusiyyəti göstərmir. Hamısı öz içlərində orijinal olaraq yaradılmış ayrı növlərdir və bir-birləri arasında iddia edildiyi kimi, hər hansı bir təkamülə dair əlaqə yoxdur.
www.darwinistyenilgininacisi.com

Bu günkü çinar ağacı yarpaqları

50 milyon illik çinar yarpağı qalığı

Hörümçəklər yüz milyon ildir dəyişmədən varlıqlarını davam etdirən canlılardan biridir. Burada görülən kəhrəba içindəki hörümçəyin və torunun 25 milyon il yaşı var. Dövrümüzdə yaşayan nümunələrindən heç bir fərqi olmayan bu canlı sanki: "Biz təkamül keçirmədik, yaradıldıq" deyir.
www.netcevap.org

Ənbər içində 25 milyon illik hörümçək və hörümçək toru qalığı

Ən qədim tısbağalara, Almaniyadakı Trias dövrü qalıq yataqlarında rast gəlinir. Bu gün yaşayan nümunələrinə çox bənzəyən sərt qabıqları sayəsində asanlıqla digər növlərdən ayırd edilirlər. Daha erkən və ya daha primitiv tısbağalara aid heç bir izə rast gəlinməyib. Halbuki, tısbağalar çox asanlıqla qalıqlaşır və qalıqlarının çox kiçik parçaları da tapılanda asanlıqla tanınırlar. (Robert Carroll, Vertebrate Paleontology and Evolution, s. 207)
www.surungenfosilleri.com

37-23 milyon illik tısbağa qalığı

Bütün qalıqlar canlıların var olduqları gündən etibarən eyni xüsusiyyətlərə sahib olduqlarını, zaman içində dəyişikliyə məruz qalıb təkamül keçirmədiklərini göstərir. Bu qalıqlardan biri də ağac qabığı bitlərinin milyon ildir eyni olduğunu göstərən 25 milyon illik aşağıdakı kəhrəbadır.
www.evrimbelgeseli.com

Dövr: Kaynozoy erası zaman, Oliqosen dövrü
Yaş: 25 milyon il
Bölgə: Dominikan Respublikası

25 milyon illik ağac qabığı biti qalığı (sağda)

Altda isə müasir dövrdə yaşayan ağac qabığı biti.

Skatların çoxu dəniz dibində yaşayır. Qəlsəmələri altda, gözləri üstdədir. Quyruq üzgəcləri və kürək üzgəcləri çox kiçikdir, hətta bəzi növlərdə yoxdur. Bundan 100 milyon il əvvəl yaşayan skat balıqlarının sahib olduqları bütün xüsusiyyətlərə günümüzdəki skat balıqları da malikdir. Bunun mənası isə skatların 100 milyon il keçməsinə baxmayaraq, heç dəyişmədikləri, yəni təkamül keçirmədikləridir.
www.balikfosilleri.com

100 milyon illik skat qalığının ən altda görünən müasir dövrdə yaşayan skatlardan heç bir fərqi yoxdur.

25 milyon il yaşındakı qabıq böcəkləri günümüzdəkilərlə eynidir. Milyon ildir eyni olan bu böcəklər canlıların təkamül keçirmədiklərini, yaradıldıqlarını göstərən nümunələrdən biridir.
www.evrimmasali.com

Milyon il əvvəl yaşayan qabıq böcəklərinin bu günkü nümunələrindən heç bir fərqi yoxdur. (yanda)

25 milyon illik qabıq böcəyi qalığı (solda)

Qalıq qeydləri bütün ağcaqanad növlərinin bir anda ortaya çıxdıqlarını və milyon ildir dəyişmədən varlıqlarını davam etdirdiklərini ortaya qoymuşdur. Bu da ağcaqanadların digər bütün canlılar kimi təkamül keçirmədiyini isbat edən vəziyyətdir. Bir çox elm adamı da bu həqiqəti ifadə edərək təkamül nəzəriyyəsi ilə böcəklərin mənşəyini açıqlaya bilmədiklərini qeyd edirlər. Aşağıdakı qalıqda 50 milyon illik qırmızı ağac yarpağı qalığı ilə birlikdə mart ağcaqanadının qalığı görünür. www.burmaamberleri.com

50 milyon illik qırmızı ağac yarpağı qalığı

Müasir dövrdə yaşayan qırmızı ağac yarpağı

Ciyərli balıqlar suların azaldığı dövrlərdə, özlərini palçığa basdıraraq həyatlarını davam etdirə bilirlər. Məlum olan ən qədim ciyərli balıq qalığı Devon dövrünə (417 - 354 milyon il) aiddir. Şəkildə görünən qalıq da eyni dövrə aiddir. Bundan 350 milyon il əvvəl yaşayan ciyərli balıqların dövrümüzdə yaşayanlardan heç bir fərqi yoxdur. Yüz milyonlarla ildir dəyişməyən ciyərli balıqlar canlıların təkamül keçirmədiklərinin, yaradıldıqlarının isbatlarından biridir. www.darwininacmaziruh.com

350 milyon illik ciyərli balıq qalığı

Dövrümüzdə dənizlərdə yaşayan ciyərli balıq

De: “Bir deyin görək, sizin Allahdan başqa tapındıqlarınız yer üzündə nə yaratmışlar? Yoxsa onların göylərin (yaradılmasında) bir şərikliyi var? Əgər doğru danışanlarsınızsa, mənə bundan əvvəl (nazil olmuş) bir kitab və ya elmdən qalan bir əsər gətirin”. (Əhqaf surəsi, 4)
www.kurandacennet.com

Kəpənəklər soyuqqanlı canlılar olduqları üçün bədən temperaturlarının çox yüksəlməməsi və daim nisbətdə tutulması vacibdir. Uçma əsnasında qanadlarda yaranan yüksək temperatur kəpənəklər üçün problemdir. Kəpənəklərin bədənindəki qan qanadlardakı çox incə damarlardan keçir. Kəpənəyin bədənində yaranan artıq temperatur qanadlardakı incə damarlarda qanın dövranı ilə birlikdə xaricə atılır. Bu, Allahın yaratmasıdır.
www.yaratilisgercekleri.com

Dünyada yaşayan on mindən çox quş növünün hər biri müxtəlif xüsusiyyətlərə malikdir. Şahinin iti gözləri, geniş qanadları və sivri pəncələri var. Bir neçə yüz qramlıq yağmur quşları hər il qışlamaq üçün 4.000 kilometrlik yolu 88 saat qanad çırparaq və okeanın üstündə dəstələrini itirmədən qət edirlər. Allah hər canlını müxtəlif xüsusiyyətlərlə yaratmışdır.
www.darwinvekuslar.com

Yüksək dərəcəli temperaturda bütün yay boyu yarpaqları günəşin altında qovurulmasına baxmayaraq, bitkilərə heç nə olmur. Yarpaqların günəşə tərəf olan üst hissələri su itkisinin qarşısını almaq üçün xüsusi qoruyucu təbəqə ilə örtülmüşdür. Bundan başqa, su yarpaqlardan buxarlanır və tərləmə baş verir. Su buxarlanarkən tərləmə sayəsində bitki sərinləyir. Uca Allah yaratdığı bütün canlıları ən yaxşı biləndir, qoruyandır.
www.yaratilisguzellikleri.com

Yaratdıqlarımızı öz istifadələrinə verdik ki, bəzilərindən minik kimi yararlansınlar və bəzilərini də yesinlər. Bunlarda onlar üçün (başqa) mənfəətlər və içiləcək süd də vardır. Yenə də şükür etməyəcəklərmi? (Yasin surəsi, 72-73)
www.kaderinaciklamasi.com

Yeddi göy, yer və onlarda olanlar Ona təriflər deyir. Elə bir şey yoxdur ki, həmd ilə Ona tərif deməsin, lakin siz onların tərifini anlamazsınız. Həqiqətən, O, həlimdir, bağışlayandır. (İsra surəsi, 44)
www.Kurandayaratilis.com

Bir çox bitki növü tırtıllardan qorunmaq üçün uçucu xüsusiyyətə malik kimyəvi maddə ifraz edirlər. Bu kimyəvi maddələr sayəsində tırtılların düşməni olan ovçu həşəratlar bura gəlir və tırtılları yeyərək bitkini qoruyurlar. Şübhəsiz ki, bitki özünü düşmənlərindən qorumaq üçün belə strategiya hazırlaya bilməz. Bitkini qüsursuz xüsusiyyətlərlə yaradan aləmlərin Rəbbi olan Allahdır.
www.belgeseller.tv

Pişik balaları doğulduqları zaman kor və müdafiəsiz olurlar. Təxminən 100 qr. ağırlığındakı balalara baxmaq üçün ana pişik çox az yatır. Daim balalarının isti qalmalarını və müdafiəsini təmin etməyə çalışır. Ananın südü balaların böyüməsi üçün tam lazım olan xüsusiyyətdədir. Bu canlıların balalarına olan şəfqəti ancaq bütün canlıların hakimi olan Allahın ilham etməsi ilə yaranır.
www.darwinnedenyanildi.com

Sınıq zamanı ağrı hissinə səbəb olan sinirlər onurğa iliyi ilə beyinə daha çox siqnal yollayır. Beyin hüceyrələri isə ilk 10-15 dəqiqədə ağrı siqnallarını demək olar ki, sıfıra endirən morfinə bənzər təbii anesteziya maddəsi olan endorfini ifraz etməyə başlayır. Bunun sayəsində yaralanan insanın təhlükə yerindən uzaqlaşmaq üçün gücü olur. Şüursuz hüceyrələrə bu xüsusiyyətləri verən uca Allahdır.
www.darwinistlerinferyatlari.com

150 ildən bəri əldə edilən fosil qeydləri canlı növlərinin heç vaxt dəyişmədiyini və bir-birinə çevrilmədiyini sübut etmişdir. Dövrümüzdə yaşayan nümunələrindən heç bir fərqi olmayan 146-65 milyon illik xərçəng fosili bu həqiqəti bir daha vurğulayır.
www.metafizikbilgiler.com

146-65 milyon illik xərçəng fosili və dövrümüzdə yaşayan xərçəng

Təqribən 200 milyon ilə yaxın heç bir dəyişikliyə uğramayan xərçənglər darvinistlərin bütün iddialarını əsassız edən xüsusi elmi tapıntılardan biridir. Yer üzünün bir çox bölgəsindən çıxarılan milyonlarla fosil eyni həqiqəti ortaya qoyur: tarixin heç bir dövründə təkamül yaşanmamışdır. Təkamül sadəcə darvinistlərin xəyallarındakı hekayədən ibarətdir.
www.Allahinmunissanati.com

Dövrümüzdə yaşayan xərçəng və 208-146 milyon illik fosili

Pelobatidae (sarımsaq qurbağası) sinfinə daxil olan bu qurbağa cinsinin bir qismi arxa ayaqları ilə torpağı qazaraq torpağın içində, bir qismi də sulu yerlərdə yaşayır. Bu heyvanlar anidən ortaya çıxmış, yəni yaradılmışlar və ortaya çıxdıqları andan bu yana heç bir təkamülə məruz qalmamışlar.
www.guncelhaber.org

50 milyon illik qurbağa fosili və yan tərəfdə dövrümüzdə yaşayan qurbağa.

İlan ulduzu təkamülü qəti təkzib edən yaşayan fosildir. İstər 300 milyon il, istər 245 milyon il və istərsə də 150 milyon il öncə yaşayan nümunələri dövrümüzdəkilərlə tam eynidir. Yüz milyon illərlə eyni qalan ilan ulduzları təkamülün yalan olduğunu göstərir.
www.yaratilismuzesi.com

150 milyon illik ilan ulduzu fosili və dövrümüzdə yaşayan ilan ulduzu

Qurdlar bu günkü xüsusiyyətləri ilə yaradılmışlar və milyonlarla ildir dəyişməmişdir. Məməlilərin mənşəyi mövzusunda təkamülçülərin irəli sürdükləri iddialar ağılsız və məntiqsiz hekayələrdən ibarətdir. Heç bir elmi dəlilə əsaslanmayan bu hekayələr təbliğat xarakteri daşıyır. Əlbəttə, hər kəs istədiyi kimi ssenarilər yaza bilər, fantastik üslubdan istifadə edə bilər, lakin bu ssenarilərə elmi don geydirmək doğru deyil.
www.dawkinsecevap.com

Budur Allah – sizin Rəbbiniz. Ondan başqa ilah yoxdur. Hər şeyin yaradıcısı (Allahdır)! Elə isə Ona ibadət edin! O, hər şeyi qoruyandır. (Ənam surəsi, 102)
www.darwinizminyalanlarinaaldanmayin.com

Dövrümüzdəki qurdlarla 9.5 milyon yaşı olan qurd kəlləsinin fosili eynidir.

Bu günə qədər heç bir boz ayı: "Niyə özümü inkişaf etdirib sivilizasiya qurmuram", -deyib şəhərlər inşa etməyə, sənət əsərləri meydana gətirməyə, ədəbi əsərlər yazmağa, elmi kəşflər etməyə başlamamışdır. Ayılar həmişə ayı olmuş, heç bir canlıya çevrilməmişlər. Bütün canlılar sahib olduqları xüsusiyyətlərlə soylarını davam etdirmişlər. Meymunların insana çevrildiyini iddia etmək ağılsızlıqdır. Bu iddianın heç bir elmi əsası yoxdur.
www.fosiller.net

Dövrümüzdə yaşayan boz ayı ilə 90 milyon illik boz ayının kəllə fosili heç bir dəyişikliyə uğramadan eynidir.

Məgər onlar görmürlər ki, göyləri və yeri yaradan Allah onlar kimisini də yaratmağa qadirdir? Allah onlar üçün (elə) bir əcəl müəyyən etmişdir ki, ona heç bir şəkk-şübhə yoxdur. Zalımlar isə küfrdən başqa bir şey qəbul etmədilər. (İsra surəsi, 99)
www.darwinistlersoruncevaplayalim.com

9.3 milyon illik qurd kəlləsinin fosili ilə dövrümüzdə yaşayan qurd eynidir.

Ən vəhşi heyvan kimi tanınan və pişiklər fəsiləsinin nümayəndələri olan şir, bəbir və pələngin dərilərindəki naxışların fərqli olduğunu bilirsinizmi? İnsanların barmaq izi kimi bu naxışlar da hər bəbir və yaquarda fərqlidir.
www.darwinnedenyanildi.com

80 milyon illik pələng kəlləsinin fosili ilə dövrümüzün pələngləri eynidir.

O, Xaliq, yoxdan yaradan, surət verən Allahdır. Ən gözəl adlar yalnız Ona məxsusdur. Göylərdə və yerdə olanların hamısı Onun şəninə təriflər deyir. O, qüdrətlidir, müdrikdir. (Həşr surəsi, 24)
www.evrimbilim.com

95 milyon illik tülkü kəlləsinin fosili ilə dövrümüzün tülküləri eynidir.

Fosil tapıntıları təkamül nəzəriyyəsinə vurulan ən böyük zərbədir. Çünki:
1. Təkamülçülər canlıların daim kiçik dəyişikliklərə uğrayaraq sadədən mürəkkəbə doğru inkişaf etdiyini iddia edirlər. Fosil tapıntıları isə canlıların yüz milyon illərlə kiçik bir dəyişikliyə belə uğramadığını isbatlamışdır.
2. Təkamülçülər bütün canlıların xəyali ortaq atadan törədiklərini irəli sürürlər. Bu günə qədər canlı növlərinin atası kimi qəbul edilən bir dənə fosil nümunəsinə belə rast gəlinməmişdir.
3. Təkamülçülər canlıların bir-birlərindən törədiklərini və bunu göstərən ara-keçid forması olduğunu iddia edirlər. Lakin 150 il ərzində aparılan araşdırmalar nəticəsində bir dənə belə ara canlılara aid fosil tapılmamışdır.
www.baltikamberleri.com
www.bocekfosilleri.com

Livanda tapılmış 95 milyon illik zarqan fosili ilə dövrümüzdə yaşayan zarqan bir-birinin eynidir.

Belonidae sinfinə daxil olan zarqanlar incə uzun quruluşa sahibdir. Sıçrayaraq suyun üzərinə çıxa bilir və quyruqlarının üzərində yenidən suya geri qayıda bilirlər. Bu metoddan düşmənlərindən qaçmaq üçün istifadə edirlər.

Almaniyada tapılan 208-146 milyon illik krevet fosili ilə dövrümüzdəki krevet arasında heç bir fərq yoxdur.

YARADILIŞ HƏQİQƏTİ

Foklar sürü halında yaşayır. Necə olur ki, sürünün içində ana fok balasını tanıyır? Digər bir çox canlı kimi, ana fok da doğuşdan sonra balasını qoxulayır, toxunur. Bu sayədə balasının qoxusunu tanıyır və onu başqa balalarla heç vaxt qarışdırmır. Allah hər canlını ehtiyacı olan xüsusiyyətləri ilə yaradandır.
www.unludarwinistyalanlar.com

Qeybin açarları (Allahın) yanındadır. Onları ancaq O bilir. (Allah) suda və quruda nə varsa bilir. Yerə düşən elə bir yarpaq yoxdur ki, onu bilməsin. Yerin zülmətləri içində elə bir toxum, yaş-quru elə bir şey yoxdur ki, açıq-aydın kitabda olmasın! (Ənam surəsi, 59)

Böyümə hormonu bədəndə hansı nahiyələrin böyüməli olduğunu bilir. Bədən də hormonu tanıyaraq lazımi reaksiyanı verir. Böyümə hormonu sümüyə çatdığında sümük dərhal böyüməyə başlayır. Körpənin bədəninin mütənasib şəkildə böyüməsi də Allahın bu hormonu vəsilə etməsi sayəsindədir.
www.yaratilismuzesi.com

Ana ayı yuvanın tavanını 75 sm və ya 2 m qalınlıqda hörür. Tədqiqatçılar yuvalardakı istiliyi ölçmüş və çox maraqlı bir vəziyyətlə qarşılaşmışlar. Çöldəki istilik -30 dərəcə olarkən, yuvadakı istilik 2 ya da 3 dərəcədən az olmamışdır. Bütün bunları qütb ayısına öyrədən hər şeyi bilən üstün güc sahibi Allah`dır.

Göylərdə və yerdə nə varsa, Allahı təqdis edib şəninə təriflər deməkdədir. O, yenilməz qüvvət sahibi, hikmət sahibidir! Göylərin və yerin hökmü Onun əlindədir. Dirildən də, öldürən də Odur. O, hər şeyə qadirdir! (Hədid surəsi, 1-2)

İnsan bədəninə hər gün çoxlu sayda mikrob daxil olur. Bu mikroblar immun sisteminin ilk mərhələsində təsirsiz hala gətirilir. Ancaq bəzi mikrob və viruslar bədənimizə daxil olaraq həyati təhlükə meydana gətirə bilər. Hər insanın sahib olduğu immun sistemi Allahın rəhmətinin bir dəlilidir.

Heç yaradan yaratmayana bənzəyərmi?! Məgər düşünmürsünüz?! (Nəhl Surəsi, 17)
www.darwinnedenyanildi.com

İnsan burnunda 1000-ə qədər dəyişik qoxu qəbuledicisi vardır. Bu sayədə 10000-dən çox fərqli qoxunu qəbul edə bilirsiniz. Məsələn, bananı, almanı və ya portağalı iylədiyinizdə o qoxunu qəbul etmənizi təmin edən molekullar qoxu qəbulediciləri ilə birləşir və meyvələrə aid kodu meydana gətirir. Yaddaşınızda çoxdan var olan bu kod iylədiyiniz meyvənin hansı olduğunu sizə təkrar xatırladır. Allah insan bədənində yaratdığı mükəmməl sistemlə bizə yaratma sənətini tanıdır.
www.yenibilgiyenikonu.com

Kainatdakı nizamlanmanı təmin edən xüsuslardan biri də simmetriyadır. Təbiətdə gördüyümüz hər hansı bir obyekt, məsələn, toxum, meyvə və ya yarpaq araşdırıldıqda simmetriyanın varlığı dərhal

görünür. Kəpənəklərin hər iki qanadında da eyni rəng tonu və eyni naxış vardır. Bir qanadda olan naxış digər qanadda da eynilə mövcuddur. Canlılardakı bənzərsiz nizam və möhtəşəm sənət Allahın üstün yaratmasıdır.
www.Kurandaadigecencanlilar.com

Uçan balıqlar quyruq üzgəcinin çox sürətli hərəkəti ilə sudan çıxan və müəyyən bir məsafə uçduqdan sonra yenidən yavaş-yavaş suya düşən balıqlardır. 100 milyon ildir ki, ən kiçik bir dəyişikliyə belə uğramayan bu balıqlar təkamülçülərin canlıların mənşəyi və tarixi haqqındakı bütün iddialarını yerlə bir edir.

Uçan balıq
Dövr: Mezozoy erası, Trias dövrü
Yaşı: 95 milyon il
Tapıldığı yer: Liviya

Müasir dövrdə yalnız iki soyunu davam etdirən mərsin balıqları həmişə mərsin balığı olaraq mövcud olmuşdur. Başqa bir canlıdan törəməmiş, başqa bir canlıya da çevrilməmişlər. Bu həqiqəti təsdiq edən qalıq tapıntıları digər bütün canlılar kimi, mərsin balıqlarının da təkamül keçirmədiklərini söyləyir.

Mərsin balığı
Dövr: Mezozoy erası, Trias dövrü
Yaşı: 144 - 65 milyon il
Tapıldığı yer: Çin

Dağdağan ağacı orta böyüklükdə, təxminən 10-25 metr uzunluğundadır. Tapılan bütün dağdağan fosilləri bundan on milyonlarla il əvvəl yaşamış nümunələrinin müasir nümunələri ilə tamamilə eyni olduğunu göstərir. Bu eynilik təkamül iddiasını puç bir edir.

Dağdağan yarpağı
Dövr: Kaynozoy erası, Paleogen dövrü
Yaş: 45 milyon il
Tapıldığı yer: Green River, Wyoming, ABŞ

Fosil qeydləri digər canlılar kimi, bitkilərin də hər hansı bir təkamül prosesindən keçmədiyini isbat etmişdir. 300 milyon il əvvəl yaşamış ayıdöşəyi otları istər görünüş, istərsə də quruluş baxımından bugünkülərin tamamilə eynisidir. Bu eynilik təkamülü əsassız edir və yaradılışın elmi və açıq həqiqət olduğunu ortaya qoyur.

Ayıdöşəyi (qıjı)
Dövr: Paleozoy erası, Daş kömür dövrü
Yaş: 300 milyon il
Yer: İngiltərə

Buğumayaqlılar fəsiləsinə daxil olan Amerika qılıncquyruğu (Limulus polyphemus) Chelicerata (xeliserilər) yarımtipinə daxildir və hörümçək və əqrəb tipinə daha yaxındır. Şəkildə verilən 150 milyon il yaşındakı Amerika qılıncquyruğu fosili yaradılışın açıq bir həqiqət olduğunu, təkamülün heç bir zaman yaşanmadığını bir daha təsdiq edir.

Amerika qılıncquyruğu
Dövr: Mezozoy erası, Yura dövrü
Yaşı: 150 milyon il
Tapıldığı yer: Solnhofen, Almaniya

Bundan 100 milyon il əvvəl yaşayan skatların (Rajiformes) sahib olduqları bütün xüsusiyyətlərə hazırda yaşayan skatlar da malikdir. Bunun mənası isə vatozların 100 milyon il keçməsinə baxmayaraq, heç dəyişmədikləri, yəni təkamül keçirmədikləridir.
www.proteinolusumu.com

Skat (Rajiformes)
Dövr: Mezozoy erası, Trias dövrü
Yaşı: 100 milyon il
Tapıldığı yer: Livan

Əldə edilən saysız fosil nümunələri hər bitkinin özünəməxsus xüsusiyyətlərlə yaradıldığını və bu günə qədər dəyişmədiyini göstərir. Bu həqiqəti sübut edən tapıntılardan biri də şəkildə verilən 54 - 37 milyon illik budaqları ilə birlikdə qaraağac yarpağı fosilidir.
www.darwinistpanik.com

Budaqları ilə birlikdə qaraağac yarpağı
Dövr: Kaynozoy erası, Paleogen dövrü
Yaşı: 54 - 37 milyon il
Tapıldığı yer: Cache Creek, Kanada

Darvinistlər canlıların fasiləsiz olaraq dəyişdiklərini, yəni təkamül keçirdiklərini söyləyirlər. Fosillər isə canlıların yaradıldıqları andan etibarən heç dəyişmədiklərini göstərir. Bunun mənası isə açıqdır: canlılar təkamül keçirməmiş, uca Allah tərəfindən yaradılmışdır.
www.unludarwinistyalanlar.com

Ayıdöşəyi (qıjı)
Dövr: Paleozoy erası, Daş kömür dövrü
Yaş: 300 milyon il
Yer: İngiltərə

Donqar ağcaqanadlar (Phoridae) milyonlarla ildir eyni quruluşdadır. 45 milyon illik ənbər də bu həqiqətin dəlillərindəndir. Əgər canlı 45 milyon ildir ən kiçik dəyişikliyə belə uğramamışdırsa, o canlının təkamül keçirdiyindən bəhs etmək yersizdir. Fosillər təkamülçülərin yalan danışdıqlarının ən mühüm göstəricisidir.

Donqar ağcaqanad (Phoridae)
Dövr: Kaynozoy erası, Paleogen dövrü
Yaşı: 45 milyon il
Tapıldığı yer: Rusiya

Qalıqların göstərdiyi kimi, hazırda yaşayan böcək növlərinin hamısı yaradıldıqları andan etibarən bu günkü qüsursuz quruluşlarına malikdir, mərhələlərlə inkişaf etməmiş və heç zaman dəyişikliyə uğramamışlar. Bu həqiqətin dəlillərindən biri də şəkildə verilən ənbər içindəki 50 milyon illik bitki birəsidir. (Homopteran)

Bitki birəsi (Homopteran)
Dövr: Kaynozoy erası, Paleogen dövrü
Yaşı: 50 milyon il
Tapıldığı yer: Polşa
Pelobatidae fəsiləsinə daxil olan bu qurbağa cinsinin bir qismi arxa ayaqları ilə torpağı qazaraq torpağın içində, bir qismi də suda yaşayır. Bu heyvanlar birdən ortaya çıxmışlar, yəni yaradılmışdılar və ilk ortaya çıxdıqları andan bu günə heç bir təkamül keçirməmişlər.
www.guncelhaber.org

Dövr: Kaynozoy erası, Paleogen dövrü
Yaşı: 50 milyon il
Tapıldığı yer: Messel, Almaniya

Ən qədim çanaqlı bağa fosilləri təxminən 200 milyon il əvvələ aiddir və o dövrdən bu günə kimi bu canlılarda heç bir dəyişiklik olmamışdır. Şəkildə verilən 37 - 23 milyon illik çanaqlı bağa fosili də mükəmməl xüsusiyyətləri ilə hazırda yaşayan çanaqlı bağalardan fərqli olmadığını göstərir.
www.yaratilismuzesi.com
Hazırkı çanaqlı bağalarla və milyonlarla il əvvəlki çanaqlı bağalar arasında heç bir fərq yoxdur.

Şəkildə 37-23 milyon illik çanaqlı bağa fosili
YARADILIŞ HƏQİQƏTİ

Tək bir zülalın təsadüfən meydana gəlmə ehtimalı 10950-də bir ehtimaldır ki, bu da qeyri-mümkünə bərabərdir. Bir dənə zülal belə təsadüfən meydana gələ bilmədiyi halda darvinistlər milyonlarla zülaldan yaranan mənim kimi bir canlının təsadüfən meydana gəldiyini iddia edirlər.
www.kuranvebilim.com

Sizin Tanrınız ancaq o Allahdır ki, Ondan başqa heç bir tanrı yoxdur. O, elm ilə hər şeyi ehtiva etmişdir! (Taha surəsi, 98)

Bir insanın burnunda 5-10 milyona yaxın qoxu hiss etmə hüceyrəsi var ikən, mənim burnumda 220 milyona qədər qoxu hiss etmə hüceyrəsi var. Sahib olduğum hər xüsusiyyət uca Allahın mənə verdiyi bənzərsiz bir nemətdir.
www.yaratilismuzesi.com

Heç yaradan yaratmayana bənzəyərmi?! Məgər düşünmürsünüz?! (Nəhl surəsi, 17)

Allah anamın qarnında tək bir ortaq ana hüceyrəni çoxaldıb mənim bütün toxumalarımı, orqanlarımı, üzümü və gözlərimi meydana gətirdi. Rəbbim yaratdığı bütün hüceyrələrimə nə qədər çoxalmalarının, nə vaxt dayanmalarının lazım olduğunu və hansı orqanlarımı meydana gətirmələrinin lazım olduğunu müntəzəm ilham edir.

Allah belə buyurdu: "İki tanrı qəbul etməyin. O, yalnız tək bir Tanrıdır. Ancaq Məndən qorxun!" Göylərdə və yerdə nə varsa, hamısı Onundur! Din də daim Onundur. Belə olduğu təqdirdə, Allahdan başqasındanmı qorxursunuz? (Nəhl surəsi, 51-52)
www.bilgilerdunyasi.net

Darvinistlər mənim sahib olduğum tək bir hüceyrəni belə açıqlaya bilmədiyi halda, mənim bütün gözəlliyimin, ətrafımdakı ağacların, digər çiçəklərin, meyvələrin və ucsuz-bucaqsız meşələrin təsadüfən meydana gəldiyini iddia edərlər. Halbuki, məni də, ətrafımdakı bütün ehtişamlı gözəllikləri də yaradan aləmlərin Rəbbi olan uca Allahdır. (Sağdakı şəkil)
www.yaratilisguzellikleri.com

O, göylərin və yerin, onların arasında olan hər şeyin Rəbbidir! Yalnız Ona ibadət et və Onun ibadətinə səbirli ol... (Məryəm surəsi, 65)

Darvinistlər anamın mənə olan şəfqətini kor təsadüflərə bağlayarlar. Amma şüursuz halda inkişaf edən hadisələrin fədakarlıq, şəfqət və həmrəylik kimi şüur və ağıl tələb edən xüsusiyyətləri necə meydana gətirdiyini heç bir şəkildə açıqlaya bilməzlər.
www.darwininbilmedikleri.com

(Bütün bunlar Rəbbinə tərəf) dönüb qayıdan hər bir bəndə üçün ibrət dərsi və öyüd-nəsihət olsun deyə etdik. Biz göydən bərəkətli su endirdik, sonra onunla bağlar və biçilən taxıl dənələri yetişdirdik. (Qaf surəsi, 8-9)
www.yaratilismucizesi.com

Sahib olduğum tək bir DNT-nin hər hansı bir pilləsindəki, məsələn, 719 milyon 348 min 632-ci pilləsindəki tək bir hərfin səhv kodlaşdırılması kimi bir xəta belə mənim üçün qorxunc nəticələrə yol aça bilər. Buna baxmayaraq, darvinistlər qüsursuz quruluşumla mənim təsadüfi hadisələrin bir nəticəsi olduğumu iddia edirlər. Bunun qeyri-mümkün olduğu açıq-aşkardır.
www.darwinnedenyanildi.com

Düşmənlərimizə qarşı olduqca yırtıcı olduğumuza baxmayaraq, ailəmizə son dərəcə şəfqət və sevgi göstəririk. Əgər hər şey darvinistlərin dediyi kimi, şüursuz hadisələrin nəticəsində inkişaf edirsə və onların iddia etdiyi kimi təbiətə yalnız mübarizə hakimdirsə, bu vəziyyətdə, sevgini, şəfqət və himayəni, övladlarımıza qarşı fədakar davranışlarımızı heç bir şəkildə bilməməli idik.
www.kurandayaratilis.com

"Keçmişdə yaşayan tısbağalara Almaniyadakı Trias dövrünə aid fosil yataqlarında rast gəlmək mümkündür. Onlar dövrümüzdəki tısbağalara çox oxşasa da, sərt qabıqları ilə digərlərindən fərqlənirlər. İbtidai tısbağalara aid isə heç bir iz tapılmamışdır. Halbuki, tısbağaların fosilləşməsi çox asan prosesdir və onlara aid kiçik qalıqlar tapılsaydı, asanlıqla tanına bilərdi". (Robert Carroll, Vertebrate Paleontology and Evolution, səh. 207)
www.surungenfosilleri.com

37-23 milyon illik tısbağa fosili

Maralların onlarla növündən biri olan xallı marala dünyanın bir çox bölgəsində rast gəlmək mümkündür. Fosilləşərək bu günə qədər qorunan bu maral kəlləsi yer üzündə təkamüli bir inkişafın yaşanmadığını, canlıların yaradıldığı ilk halları ilə bugünkü görünüşləri arasında heç bir fərqin olmadığını ortaya qoyur.
www.darwinistneleridusunmez.com

78 milyon illik marala aid kəllə sümüyünün dövrümüzdəki marallardan heç bir fərqi yoxdur.

Təkamülçülərin iddiaları doğru olsaydı, keçmişdə həm antilop xüsusiyyəti daşıyan və həm də fərqli bir canlı növünün xüsusiyyətlərinə sahib olan bir çox qəribə canlı olardı. Lakin saysız nağıl və xəyali ssenari ilə dolu olan təkamülçü yayımlarda bir ədəd belə ara canlı fosili sərgilənmir. Çünki belə bir canlı tarixin heç bir dövründə yaşamamışdır. Bütün canlılar şəkildə nümunəsi görülən 83 milyon illik antilop kimi, var olduqları ilk halları ilə günümüzə qədər gəlmişlər.

83 milyon illik antilop kəllə sümüyü

"Mustelidea" fəsiləsinə daxil olan dələlər milyon illərlə dəyişməyən görünüşləri ilə təkamülün iddialarını təkzib edən canlılardan biridir. Aparılan geoloji araşdırmalar digər bütün elm sahələri kimi, təkamül nəzəriyyəsinin əsassızlığını ortaya qoyarkən yaradılışın açıq bir həqiqət olduğunu göz önünə çəkir.
www.kafatasifosilleri.com

Yuxarıdakı şəkildə 23-5 milyon illik dələyə aid kəllə sümüyündən də görüldüyü kimi, dələlər əsrlərdir ki, heç bir dəyişikliyə məruz qalmayıblar və bu isə onları Allahın yaratdığını sübut edir.

Şimal qütb bölgəsində ara-sıra mənfi 40 dərəcəyə çatan soyuqda yaşayan qütb tülküləri bəslənmək üçün bəzən 1000 kilometr yol qət edirlər. Allahın çətin şərtlərə dözümlü yaratdığı qütb tülküsünün fosil kəllələri günümüzdəki canlı nümunələri ilə tam eynilik təşkil edir. Bu açıq-aşkar dəlil bütün canlılarda olduğu kimi, tülkülərin də yaradıldığı ilk andakı halları ilə indiki dövrdə də mövcud olduqlarını göstərir.
www.evrimmasali.com

Yan tərəfdəki şəkildə Çində tapılmış 8.2 milyon illik qütb tülküsünün kəllə sümüyü göstərilmişdir, alt tərəfdəki şəkildə isə dövrümüzdə yaşayan qütb tülküsü göstərilmişdir.

Darvinistlərin 150 il davam edən ara forma fosili axtarışı ümidsizliklə nəticələnmişdir. Hazırda təkamülçülərin dəlil kimi ortaya qoya biləcəyi heç bir tapıntı yoxdur. Antropoloq Cefrey Şvarç fosil qeydlərinin darvinizmin əleyhinə olduğunu belə ifadə edir:
"Bir çox paleontoloq qalıq qeydlərində itkin halqaları tapmaq əvəzinə yalnız böyük boşluqlarla və bu günə qədər yazılmış fosil növləri arasında hər hansı bir ara forma olmadığı gerçəyi ilə üz-üzə gəldi". (Schwartz, Jeffrey H., Sudden Origins, 1999, s. 89)

www.hayvanlaralemi.net

Yuxarıdakı şəkildə 23-5 milyon illik qütb porsuğunun kəllə sümüyü və dövrümüzdə yaşayan bir qütb porsuğu göstərilmişdir.

Mürəkkəb balıqlarının tarix boyu heç bir dəyişikliyə məruz qalmadığını sübut edən bu 95 milyon illik fosil təkamülçülərin iddialarını təkzib edir. Bu fosillər qarşısında əli bağlı olan təkamülçülər öz iddialarını sübut edən heç bir dəlil tapa bilmirlər.
www.kuranevrimiyalanliyor.com

Yuxarıdakı şəkildə Livanda tapılmış 95 milyon illik mürəkkəb balığı, altındakı şəkildə isə dövrümüzdə yaşayan mürəkkəb balığı göstərilmişdir.

Günümüzdəki pandaların daşıdığı bütün xüsusiyyətlərə sahib olan və bundan 96 milyon il əvvəl yaşamış pandalar təkamülü rədd edir. Fosillərlə isbat edilən bu həqiqət açıq və dəqiq olaraq

ortadadır. Darvinistlərin israrla gizlətməyə çalışması bu həqiqəti dəyişdirməz. Canlılar təkamüllü müddət nəticəsində ortaya çıxmamışdır. Canlı və cansız bütün varlıqları Allah yaratmışdır.
www.fosillerevrimireddediyor.com

Yuxarıdakı şəkildə 96 milyon illik pandaya məxsus kəllə sümüyü göstərilmişdir.

Fosil qeydləri qum tülkülərinin həmişə qum tülküsü olaraq mövcud olduğunu, başqa bir canlıdan törəmədiklərini isbat etmişdir. Günümüzdəki qum tülküləri ilə hər yöndən eyni olan şəkildəki 86 milyon illik qum tülküsü kəllə fosili təkamülçülərin yalnız xəyallarını dilə gətirdiklərinin dəlilidir. Təkamülçü fərziyyələr elmi istinaddan məhrumdur.

Dövrümüzdə yaşayan qum tülküləri ilə eyni xüsusiyyətlərə sahib olan 86 milyon illik bu kəllə sümüyü təkamülçülərin iddialarını bir daha təkzib edir.

At nalı yengəcləri, chelicerata cinsinə sinfinə daxildirlər, həmçinin hörümçəklər və əqrəb sinfinə də yaxındırlar. Şəkildə 150 milyon illik at nalı yengəci fosili göstərilmişdir. Bu fosil bir daha təkamülü yalanlayır və yaradılışın açıq-aşkar gerçək olduğunu təsdiq edir.
www.evrimbelgeseli.com

Şəkildə dövrümüzdə yaşayan bir at nalı yengəci, altında isə 150 milyon illik Almaniyada tapılmış at nalı yengəci fosili göstərilmişdir.

Təkamülçülərin uzun illər boyu axtardığı ara keçid fosilləri heç bir şəkildə tapılmır və digər tərəfdən yaradılış həqiqətini ortaya qoyan fosillərə hər gün bir yenisi əlavə olunur. Şəkildəki zebr kəllə fosili də bu nümunələrdən biridir. Diş və çənə quruluşu günümüzdəki nümunələrindən fərqsiz olan bu fosil təkamül nəzəriyyəsinin böyük bir uydurmadan ibarət olduğunu, bütün canlıları Allahın yaratdığını bir daha təsdiq edir.
www.dominikamberleri.com

Yuxarıdakı şəkildə diş və çənə sümüyü quruluşu ilə dövrümüzdə yaşayan növlərindən heç fərqlənməyən 70-40 milyon illik zebrin kəllə sümüyü fosili göstərilmişdir.

Darvinistlərin açıqlaya bilmədiyi mövzulardan biri də məməlilərin mənşəyidir. Təkamülçülər məməlilərin mənşəyinə və bu sinfə daxil olan canlıların bir-biriləri ilə olan sözdə təkamüli qohumluq əlaqələrinə dair heç bir dəlil göstərə bilməzlər. 90 milyon illik bu pələng kəllə fosili də təkamül nəzəriyyəsinin çıxılmaz vəziyyətdə olduğunun dəlillərindən biridir.
www.kambriyenvedarwin.com

90 milyon illik pələng kəllə fosili